**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və sosial siyasətin həyata keçirilməsi və müasir tələblərə uyğun təşkilinin təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında aşağıdakı dövlət xidmətləri yaradılsın:

1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyinin bazasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti;

~~1.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Baş Məşğulluq İdarəsinin bazasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti;~~ [1]

*~~1.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Əlillərin Sosial Müdafiəsi Baş İdarəsi və Bakı şəhər Əhalinin Sosial Müdafiəsi İdarəsi ləğv edilərək, onların bazasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti;~~* [2]

*~~1.4. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Tibbi-Sosial Ekspertiza Mərkəzinin bazasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti.~~*[3]

2. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturu" təsdiq edilsin.

3. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin.

4. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə" təsdiq edilsin.

~~5. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti haqqında Əsasnamə" təsdiq edilsin.~~

*~~6. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti haqqında Əsasnamə" təsdiq edilsin.~~*

*~~6-1. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur - Əlavə VI).~~*[4]

*7. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının işçilərinin say həddi 350 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti Aparatının işçilərinin say həddi 107 ştat vahidi ~~(Xidmətin mərkəzi laboratoriyası ilə birlikdə)~~ və regional bölmələrinin işçilərinin say həddi 257 ştat vahidi müəyyən edilsin.*[5]

8. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

8.1. bir ay müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparatının və strukturuna daxil olan qurumların fəaliyyətinin maliyyələşdirilməsi və digər təminatı ilə bağlı məsələləri həll etsin;

8.2. üç ay müddətində:

8.2.1. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nazirliyin aparatının və strukturuna daxil olan qurumların fəaliyyətinin təşkili məqsədi ilə zəruri tədbirlərin həyata keçirilməsini təmin etsin.

10. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 11 yanvar tarixli 72 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №1, maddə 25; 2002-ci il, № 8, maddə 485; 2003-cü il, № 10, maddə 585; 2004-cü il, № 7, maddə 537, № 10, maddə 799; 2005-ci il, № 12, maddə 1102; 2007-ci il, № 2, maddə 97, № 10, maddə 947; 2008-ci il, № 3, maddə 168, № 5, maddə 373, № 11, maddə 970; 2009-cu il, № 12, maddə 983) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 fevral 2011-ci il
№ 386

**Əlavə I**

Azərbaycan Respublikası
Prezidentinin
2011-ci il 16 fevral tarixli 386
nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturu

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparatı (şöbələr və sektorlar);

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti;

~~3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti;~~ [6]

~~*4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti;*~~ [7]

~~*4-1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti;*~~[8]

~~*4-2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu;*~~[9]

5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli bölmələri.

**Əlavə II**

Azərbaycan Respublikası
Prezidentinin
2011-ci il 16 fevral tarixli 386
nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra - Nazirlik) əmək münasibətləri, əməyin mühafizəsi, əmək ehtiyatlarından istifadə, əhalinin sosial müdafiəsi*, o cümlədən əmək pensiyaları və sosial sığorta* , *dövlət icbari şəxsi sığorta,* əhalinin məşğulluğu, *işsizlikdən sığorta,* demoqrafiya, tibbi-sosial ekspertiza, *əlilliyi olan şəxslərin*~~*, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların*~~ reabilitasiyası*, himayədar ailə və övladlığagötürmə* sahələrində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.[10]

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirlik fəaliyyətini insan və vətəndaş hüquqları və azadlıqlarına hörmət, qanunçuluq və humanizm prinsipləri əsasında qurur.

1.5. Nazirlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və Nazirliyin adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.6. Nazirliyin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Nazirlik Bakı şəhərində yerləşir.

## II. Nazirliyin fəaliyyət istiqamətləri

2.1. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. əmək münasibətləri, əhalinin məşğulluğu, *işsizlikdən sığorta,* demoqrafiya və əhalinin sosial müdafiəsi*, o cümlədən əmək pensiyaları və sosial sığorta, habelə dövlət icbari şəxsi sığorta* sahələrində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və qanunvericiliyə uyğun olaraq həmin siyasətin həyata keçirilməsini təmin edir;[11]

*2.1.1-1. himayədar ailə və övladlığagötürmə sahələrində dövlət siyasətini və dövlət tənzimləməsini həyata keçirir;*[12]

2.1.2. aidiyyəti dövlət orqanları ilə birlikdə əmək miqrasiyası sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində qanunvericiliyə uyğun olaraq iştirak edir;

2.1.3. tibbi-sosial ekspertizanın, *əlilliyi olan şəxslərin*~~*, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların*~~ reabilitasiyasının və sosial müdafiəsinin təşkil edilməsi üzrə müvafiq tədbirləri həyata keçirir;

2.1.4. öz səlahiyyətləri daxilində yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikasının, insan alveri qurbanlarının sosial reabilitasiyasının və penitensiar müəssisələrdə caza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının həyata keçirilməsini təmin edir;

2.1.5. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial xidmət göstərilməsini təmin edir;[13]

2.1.6. öz səlahiyyətləri daxilində əmək münasibətləri, əhalinin məşğulluğu, demoqrafiya və əhalinin sosial müdafiəsi sahələrinin inkişafını təmin edir;

2.1.7. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. Nazirliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Nazirliyin vəzifələri aşağıdakılardır:

3.1.1. əmək münasibətləri, əhalinin məşğulluğu, *işsizlikdən sığorta* və sosial müdafiəsi*, o cümlədən əmək pensiyaları və sosial sığorta*, *dövlət icbari şəxsi sığorta,* habelə Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun digər sahələrdə qanunvericiliyin tətbiqini təmin etmək məqsədi ilə öz səlahiyyətləri daxilində zəruri olan təlimatlar, əsasnamələr, qaydalar və digər normativ hüquqi aktlar qəbul etmək; [14]

3.1.2. öz səlahiyyətləri daxilində əməyin ödənilməsi, əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizəsinin təmin edilməsi sahələrində mülkiyyət və təşkilatı-hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatların fəaliyyətini əlaqələndirmək, habelə işəgötürənlərə əməyin təşkili, ödənilməsi və mühafizəsi işinin təşkilində köməklik göstərmək;

3.1.3. öz səlahiyyətləri daxilində mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri üzrə fəaliyyətlərinə dövlət nəzarətini həyata keçirmək, onların Azərbaycan Respublikasının əmək qanunvericiliyə zidd olan əmr, sərəncam və qərarlarının tətbiqini dayandırmaq, onların ləğv edilməsi barədə göstəriş vermək, təqsirkar şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb etmək və zəruri nallarda digər məsuliyyətə cəlb edilməsi barədə müvafiq orqanlar qarşısında məsələ qaldırmaq;

3.1.4. müəssisələrdə əməyin təhlükəsizliyi tələblərinə uyğun gəlməyən və işçilərin sağlamlığı, yaxud həyati üçün təhlükə törədən işin və ya istehsal vasitələrinin istismarının, onlar əməyin təhlükəsizliyi tələblərinə uyğunlaşanadək, qanunvericiliklə müəyyən edilmiş. qaydada dayandırılması ilə bağlı tədbirlər görmək;

3.1.5. öz səlahiyyətləri daxilində yeni və yenidən qurulmuş müəssisələrin, obyektlərin, istehsal vasitələrinin əməyin mühafizəsi tələblərinə uyğunluğunu təyin edən sertifikat-pasportun verilməsini təmin etmək;

3.1.6. öz səlahiyyətləri daxilində yeni tikilmiş və ya yenidən qurulmuş istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin istismara buraxılmasına razılıq vermək;

3.1.7. öz səlahiyyətləri daxilində əmək miqrasiyası sahəsində digər dövlət və qeyri-dövlət strukturlarının fəaliyyətini əlaqələndirmək;

*3.1.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq, Nazirlik sisteminə daxil olan qurumların fəaliyyətini yoxlamaq, habelə onların fəaliyyətinə nəzarəti həyata keçirmək;*[15]

3.1.9. Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

*3.1.9-1. Nazirliyin mərkəzləşdirilmiş elektron informasiya sisteminin fəaliyyətini və əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin bu sistem vasitəsilə həyata keçirilməsini təmin etmək;*[16]

3.1.10. Nazirliyin sisteminə daxil olan qurumların işçilərinin əmək şəraitinin, maddi

və sosial-məişət təminatının yaxşılaşdırılması barədə təkliflər vermək və müvafiq tədbirlər həyata keçirmək;

3.1.11. öz səlahiyyətləri daxilində əmək münasibətlərini tənzimləmək və sosial əməkdaşlığın normativ hüquqi bazasını inkişaf etdirmək;

3.1.12. kollektiv müqavilələrin və sazişlərin yerinə yetirilməsinə öz səlahiyyətləri daxilində nəzarəti həyata keçirmək və onların uçotunu aparmaq;

3.1.13. əməyin ödənilməsi və tarif sistemlərinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

3.1.14. büdcədən maliyyələşdirilən təşkilatlarda çalışan işçilərin, o cümlədən hərbi qulluqçuların və xüsusi rütbəli .şəxslərin əməyinin ödənilməsi sistemləri, növləri və məbləğləri üzrə təkliflər vermək;

3.1.15. əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əməkhaqqının yüksək məbləğdə artımlarla (əmsallarla) ödənilməsinə nəzarəti həyata keçirmək;

3.1.16. əmək münasibətləri üzrə sahə və sahələrarası standartları, normalan müəyyən edən normativ hüquqi aktlara riayət olunmasına nəzarəti həyata keçirmək;

3.1.17. əmək şəraiti nəzərə alınmaqla mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatların işçiləri tərəfindən xüsusi geyim və digər fərdi və kollektiv mühafizə vasitələrindən istifadə olunmasına nəzarəti həyata keçirmək;

3.1.18. öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.19. qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinin qarşısını almaq üçün səlahiyyətləri daxilində tədbirlər görmək; [17]

*3.1.19-1. Nazirliyin fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi məqsədilə “e-sosial” internet portalının fəaliyyətini təmin etmək;* [18]

*3.1.19-2. hər il növbəti il üçün normal iş vaxtı üzrə istehsalat təqvimini və iş vaxtının normasını müəyyən etmək;* [19]

3.1.20. əməyin mühafizəsi üzrə iş yerlərinin attestasiyasının keçirilməsinin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək;

3.1.21. öz səlahiyyətləri daxilində istehsalatda baş verən bədbəxt hadisələrin istehsalatla *bağlılığının araşdırılmasını* və uçotunun aparılmasını təmin etmək; [20]

3.1.22. qanunvericiliyə uyğun olaraq istehsalatda bədbəxt hadisələrin və peşə xəstəliklərinin azaldılması üzrə qabaqlayıcı tədbirlərin görülməsi və əməyin mühafizəsi üzrə vəzifələrin yerinə yetirilməsi üzərində dövlət nəzarətini həyata keçirmək, istehsalatda bas verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsini müəyyən etmək;

3.1.23. demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsi işini əlaqələndirmək;

3.1.24. əmək, məşğulluq, sosial müdafiə və demoqrafiya məsələləri üzrə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, fəaliyyət istiqamətlərinə uyğun sahələrdə elmi-texniki nailiyyətlərinin tətbiq edilməsini təmin etmək;

*3.1.24-1. insan kapitalını inkişaf etdirmək, məşğulluğu təmin etmək və keyfiyyətli əmək bazarı formalaşdırmaq məqsədilə ixtisaslı işçi qüvvəsinin hazırlanması sahəsində mövcud problemləri araşdırmaq, bu istiqamətdə analitik və metodik materiallar hazırlamaq;*[21]

3.1.25. əmək bazarındakı vəziyyəti öyrənməklə, işçi qüvvəsinə olan tələb və təklifləri təhlil etmək, əmək bazarının inkişafına dair proqnozlar hazırlamaq;

*3.1.25-1. sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsi və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görülməsini təmin etmək;* [22]

*3.1.25-2. sosial sığortanın, dövlət icbari şəxsi sığortanın və işsizlikdən sığortanın müntəzəmliyinə dövlət təminatı üçün tədbirlər görmək;*[23]

3.1.26. işaxtaran və işsiz *şəxslərin* sosial müdafiəsini təmin etmək, onların işə düzəlməsinə köməklik göstərmək, *aktiv məşğulluq tədbirlərinə* cəlb olunmasını təşkil etmək; [24]

3.1.27. qanunvericiliyə uyğun olaraq aidiyyəti qurumlarla birlikdə ərazi və dövlət məşğulluq proqramlarını hazırlamaq və öz səlahiyyətləri daxilində həyata keçirilməsini təmin etmək;

*3.1.27-1. peşə standartlarının hazırlanmasını, təsdiqini və tətbiqini təmin etmək;* [25]

*3.1.27-2. yaşlılar üçün (məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslərə münasibətdə) peşə təlimini və ixtisasartırmanı təmin etmək.*[26]

3.1.28. aidiyyəti qurumların iştirakı ilə əhalinin həyat səviyyəsini öyrənmək, təhlil etmək və qiymətləndirmək, habelə əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin edən tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

*3.1.28-1. Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun və işsizlikdən sığorta fondunun büdcə*

*layihələrinin hazırlanmasını və təsdiq olunmuş büdcənin icrasını təmin etmək;*[27]

*3.1.28-2. məcburi dövlət sosial sığorta, dövlət icbari şəxsi sığorta və işsizlikdən sığorta sahələrində idarəetməni (məcburi dövlət sosial sığorta haqlarının və işsizlikdən sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət üzrə fəaliyyət istisna olmaqla) həyata keçirmək;*[28]

~~*3.1.28-3. dövlət orqanlarından və büdcə təşkilatlarından, habelə hüquqi şəxslərdən, onların filial və nümayəndəliklərindən, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən (sığortaedənlərdən), eləcə də sığortaolunanlardan Azərbaycan Respublikasının "Sosial sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunları ilə müəyyən edilmiş miqdarda məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının toplanmasına nəzarət etmək;*~~ [29]

*3.1.28-4. əmək pensiyalarının, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsində göstərilən tədbirlərin və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsində göstərilən digər sosial sığorta ödəmələrinin vaxtında maliyyələşdirilməsini təmin etmək;* [30]

*3.1.28-5. dövlət sosial sığorta sistemində fərdi uçotun həyata keçirilməsini təmin etmək;*

*3.1.28-6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən sığortaedənlər və sığortaolunanlar barədə təqdim olunan məlumatların fərdi şəxsi hesablara vaxtında və dürüst daxil edilməsini, onların etibarlı saxlanılmasını və mühafizəsini təmin etmək;*[31]

*3.1.28-7. dövlət icbari şəxsi sığorta vəsaitinin xüsusi xəzinə hesabında toplanmasını və Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun xüsusi bank hesabına köçürülməsini təmin etmək;*[32]

3.1.29. minimum əməkhaqqı məbləğinin, ehtiyac meyarının həddinin mərhələlərlə ölkə üzrə yaşayış minimumu səviyyəsinə yüksəldilməsi, *əmək pensiyalarının,* sosial müavinətlərin məbləğlərinin inflyasiya səviyyəsindən asılı olaraq indeksləşdirilməsi üzrə təkliflər vermək; [33]

3.1.30. fəaliyyət istiqamətlərinə uyğun sahələrdə müvafiq tələbatın ödənilməsini təmin etmək;

3.1.31. qanunvericiliyə uyğun olaraq aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının göstərilməsini təmin etmək;

3.1.32. ünvanlı dövlət sosial yardımı üzrə monitorinq və qiymətləndirmənin aparılmasını təmin etmək;

3.1.33. aidiyyəti qurumlarla birlikdə ölkənin sosial-iqtisadi inkişafı sahəsində proqnozların hazırlanmasında iştirak etmək, dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

3.1.34. dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən sosial müavinətlərin, kompensasiyaların, ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün qanunvericiliyə uyğun olaraq təyin edilməsi və ödənilməsini təmin etmək, əhalinin ayrı-ayrı kateqoriyalarına tibb, sosial-məişət xidməti, sanatoriya-kurort müalicəsi, *əlilliyi olan şəxslərin* nəqliyyat vasitələri ilə təmin olunması üzrə kompleks tədbirləri aidiyyəti qurumlarla birlikdə həyata keçirmək;[34]

3.1.35. öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunmuş təqaüdlərin ödənilməsini təşkil etmək;

*3.1.36. sosial sığorta, dövlət icbari şəxsi sığorta, işsizlikdən sığorta, əmək pensiyaları, sosial müavinətlər, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri və kompensasiyalar sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi üzrə təkliflər vermək;*[35]

3.1.37. *əmək pensiyaları,* sosial müavinətlər, kompensasiyalar, ünvanlı dövlət sosial yardımı və ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ilə bağlı statistik hesabatlar hazırlamaq; [36]

*3.1.37-1. Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin icrası haqqında və işsizlikdən sığorta fondunun büdcəsi haqqında hesabatın təqdim olunmasını təmin etmək;*[37]

3.1.38. fəaliyyət istiqamətlərinə uyğun sahələrdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

3.1.39. öz səlahiyyətləri daxilində digər icra hakimiyyəti orqanlarının Nazirliyin fəaliyyət istiqamətlərinə aid sahələrlə bağlı fəaliyyətini əlaqələndirmək;

3.1.40. əmək miqrasiyası proseslərinin tənzimlənməsi üzrə təkliflər hazırlamaq;

~~3.1.41. yerli əmək ehtiyatlarından daha geniş və səmərəli istifadə olunmasına şərait yaratmaqla, əcnəbi işçilərin işə cəlb olunmasını öz səlahiyyətləri daxilində tənzimləmək;~~[38]

3.1.42. əməkçi miqrantların sosial müdafiəsi üçün zəruri şəraitin yaradılması işlərini müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə həyata keçirmək;

3.1.42-1. işəgötürənlər tərəfindən əməkçi miqrantların hüquqlarının təmin edilməsinə nəzarəti həyata keçirmək;[39]

~~3.1.43. öz səlahiyyətləri daxilində qeyri-leqal əmək miqrasiyasının qarşısını almaq üçün aidiyyəti orqanlarla birlikdə tədbirlər hazırlamaq və həyata keçirmək;~~

3.1.44. *"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq,*

Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazələrinin verilməsi və onların müddətinin uzadılması ilə bağlı işəgötürənin işçi qüvvəsinə olan tələbatının yerli əmək ehtiyatları hesabına ödənilməsinin mümkün olub-olmaması barədə rəy vermək;[40]

*3.1.45. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;*[41]

~~3.1.46. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılıq (lisenziya) almış şəxslər tərəfindən həmin fəaliyyətin həyata keçirilməsi məqsədilə xarici ölkələrin hüquqi və ya fiziki şəxsləri ilə qanunvericiliyə uyğun olaraq bağlanmış müqavilələri təsdiq etmək;~~ [42]

*3.1.46-1. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslərin bu sahədəki fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək;*[43]

~~*3.1.47. əmək pensiyası təminatı sahəsində dövlət siyasətinin formalaşdırılmasında və əmək pensiyaları haqqında qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlamasında iştirak etmək;*~~ [44]

3.1.48. fəaliyyət istiqamətlərinə uyğun sahələrdə Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında iştirak etmək;

3.1.49. tibbi sosial ekspertizanı, öz səlahiyyətləri daxilində *əlilliyi olan şəxslərin*~~*, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların*~~ reabilitasiyasını və sosial müdafiəsini təşkil etmək, *əlilliyi olan şəxsləri*~~*, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları*~~ protez-ortopediya məmulatları, *əlilliyi olan şəxslər üçün arabalar* və digər reabilitasiya vasitələri ilə təmin etmək;[45]

3.1.50. qanunvericiliyə uyğun olaraq *əlilliyi olan şəxslərin*~~*, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək*~~ uşaqların ~~tibbi, peşə-əmək və sosial~~ reabilitasiyası sahəsində xüsusi proqramlar hazırlamaq və həyata keçirmək;[46]

*3.1.50-1. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsində göstərilən reabilitasiya vasitələrinin texniki normativ hüquqi aktlara uyğunluğuna nəzarəti və onların əlilliyi olan şəxslərə yaşayış yeri üzrə verilməsini həyata keçirmək;*[47]

3.1.51. *əlilliyi olan şəxslərin*~~*, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək*~~ uşaqların reabilitasiyasının gücləndirilməsi məqsədi ilə *əlilliyi olan şəxslərin* bərpa mərkəzləri şəbəkəsinin işini təkmilləşdirilmək və mövcud qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının müxtəlif regionlarında yeni reabilitasiya mərkəzlərinin yaradılmasını təmin etmək;[48]

*3.1.52. əlilliyi olan şəxslərin vahid informasiya bazasını yaratmaq məqsədi ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının apardığı elektron informasiya ehtiyatlarından istifadə etməklə, əlilliyi olan şəxslərin reyestrini elektron formada aparmaq;*[49]

3.1.53. istedadlı *əlilliyi olan şəxslər*~~*, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar*~~ arasında tətbiqi sənət, incəsənət, musiqi, bədən tərbiyəsi və idman sahələrində aidiyyəti qurumlarla birlikdə müvafiq tədbirlərin keçirilməsini təşkil etmək;

3.1.54. Azərbaycan Respublikasında fəaliyyət göstərən *əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatları ilə əlilliyi olan şəxslərin* sosial müdafiəsinin gücləndirilməsi sahəsində əməkdaşlıq etmək;[50]

3.1.55. yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikası tədbirlərini həyata keçirmək, həmin şəxslərin valideynləri və ya digər qanuni nümayəndələri barəsində aidiyyəti qurumlarla birlikdə fərdi profilaktik işi təşkil etmək;

3.1.55-1. uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair monitorinqlər aparılmasında iştirak etmək;[51]

3.1.55-2. Nazirliyin qanun əsasında müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat hazırlamaq;

3.1.56. öz səlahiyyətləri daxilində yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrinin, habelə yetkinlik yaşına çatmayanlara və onların ailələrinə sosial xidmət göstərən digər müəssisə və xidmətlərin fəaliyyətinə nəzarət etmək, eləcə də həmin müəssisə və xidmətlər şəbəkəsinin inkişafı üçün tədbirlər görmək;

3.1.57. yetkinlik yaşına çatmayanlara və onların ailələrinə sosial xidmətlər göstərən müəssisə və xidmətlərin fəaliyyətinə sosial reabilitasiyanın müasir metod və texnologiyalarının tətbiqində köməklik göstərmək;

*3.1.57-1. valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların və onları övladlığa götürməyi arzu edən şəxslərin (Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) , habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların vahid uçotunu elektron qaydada aparmaq;* [52]

*3.1.57-2. övladlığagötürmənin əsaslandırılmasını və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında*

*rəy verilməsini təmin etmək;*

~~*3.1.57-3. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqları əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin övladlığa götürməsinə razılıq verilməsini təmin etmək;*~~ [53]

*3.1.57-4. övladlığagötürmə sahəsində vahid nəzarəti, eləcə də əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin övladlığa götürdükləri Azərbaycan Respublikası vətəndaşı olan uşaqların həyat şəraiti ilə bağlı nəzarət tədbirlərinin həyata keçirilməsini təmin etmək;*

*3.1.57-5. övladlığagötürmənin ləğvi ilə bağlı tədbirlər görülməsini təmin etmək;*

*3.1.57-6. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar verilməsini təmin etmək;*

*3.1.57-7. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görülməsini təmin etmək;*

*3.1.57-8. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görülməsini, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanmasını təmin etmək;*

*3.1.57-9. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarının həyata keçirilməsini təmin etmək;*[54]

3.1.58. öz səlahiyyətləri daxilində penitensiar müəssisələrdə caza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə tədbirləri həyata keçirmək, caza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə birdəfəlik pul müavinətinin verilməsini təmin etmək, caza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası sahəsindəki fəaliyyəti əlaqələndirmək;

3.1.59. qanunvericiliyə uyğun olaraq insan alveri qurbanlarının sosial reabilitasiyası üzrə tədbirləri həyata keçirmək, bu məqsədlə insan alveri qurbanlarına yardım mərkəzlərini yaratmaq və öz səlahiyyətləri daxilində həmin mərkəzlərin fəaliyyətinə nəzarət etmək;

3.1.60. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq çətin həyat şəraitində olan şəxslərə (ailələrə) və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə (ailələrə), habelə Nazirliyin tabeliyindəki sosial xidmət müəssisələrində yaşayan bu kateqoriyadan olan şəxslərə sosial xidmət göstərilməsini təşkil etmək, müvafiq sosial xidmətlərin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üzrə tədbirlər görmək və bu sahədə öz səlahiyyətləri daxilində nəzarəti həyata keçirmək;[55]

3.1.61. vətəndaşların qəbulunu təşkil etmək, daxil olmuş ərizə, təklif və şikayətlərə qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə baxılmasını təmin etmək, o cümlədən internet saytı vasitəsilə cavablandırmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada digər tədbirlər görmək;

3.1.62. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;

3.1.63. informasiya təminatını və məsləhət işini təşkil etmək məqsədi ilə müvafiq tədbirlər görmək, fiziki və hüquqi şəxslərin müraciətləri əsasında öz səlahiyyətləri daxilində məlumatları (arayışları) təqdim etmək;

3.1.64. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.65. *Nazirlik sisteminə daxil olan* qurumlarda maddi və maliyyə vəsaitlərinin uçotunu təşkil etmək, onların istifadəsinə nəzarət etmək, struktur bölmələrinin fəaliyyətinin səmərəliliyinin artırılması ilə əlaqədar müvafiq tədbirlər görmək;[56]

3.1.66. Nazirliyin fəaliyyəti sahələrinə ayrılan büdcə vəsaitlərindən, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək və qanunvericiliyə uyğun olaraq səlahiyyətləri daxilində həmin vəsaitlərdən istifadəyə nəzarət etmək;

3.1.67. Nazirliyin arxiv sənədlərinin müəyyən olunmuş qaydada ~~saxlanılması və~~ mühafizəsini təmin etmək;[57]

3.1.68. bu məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində Nazirliyin sistemində informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi işini təşkil etmək;

3.1.69. Nazirliyin işçilərinin fəaliyyətini və peşə hazırlığını mütəmadi yoxlamaq və zəruri tədbirlər gömək, *Nazirlik sistemində* peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədi ilə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;[58]

3.1.70. Nazirliyin səlahiyyətinə aid olan işlərlə bağlı mərkəzləşdirilmiş uçot sistemlərini təşkil etmək, statistik hesabatlan aparmaq;

3.1.71. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. Nazirliyin hüquqları

4.1 Nazirlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Nazirliyin fəaliyyət istiqamətlərinə aid olan normativ hüquqi aktların layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

4.1.2. Nazirliyin səlahiyyətlərinə aid olan məsələlər üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.3. əmək münasibətləri, əhalinin məşğulluğu, *işsizlikdən sığorta,* əmək miqrasiyası, *sosial sığorta, dövlət icbari şəxsi sığorta,* əmək pensiyaları, sosial müavinətlər və əhalinin sosial müdafiəsinin digər sahələri üzrə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxmasının məqsədəuyğunluğu barədə təkliflər vermək;[59]

*4.1.3-1. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsi ilə bağlı əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən akkreditə edilmiş orqanı müəyyənləşdirmək;*[60]

4.1.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası ilə bağlı Azərbaycan Respublikası tərəfindən beynəlxalq təşkilatlara təqdim olunan dövri hesabatların hazırlanmasında iştirak etmək;

4.1.5. qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.1.6. beynəlxalq təşkilatlar və xarici dövlət təşkilatlan ilə, assosiasiyalarla, xarici şirkətlərlə əmək miqrasiyası sahəsində əməkdaşlıq məsələlərinə dair müəyyən olunmuş qaydada məsləhətləşmələr və danışıqlar aparmaq;

4.1.7. bu məqsədlər ucun nəzərdə tutulmuş vəsaitlər dairəsində müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.8. bu məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində qanunvericiliklə müəyyən edilmiş qaydada mətbu nəşrlər təsis etməklə, xüsusi bülletenlər buraxmaq, nəşriyyat-poliqrafiya fəaliyyətini həyata keçirmək;

4.1.9. qanunvericiliklə müəyyən edilmiş qaydada sərəncamında olan dövlət əmlakı barəsində hüquqları həyata keçirmək;

4.1.10. bu məqsədlər ucun nəzərdə tutulmuş vəsaitlər dairəsində qanunvericiliyə uyğun olaraq Nazirliyin ehtiyacları ucun əsaslı tikinti aparılması, bina və tikililərin yenidən qurulması və təmiri ilə bağlı işlər görmək;

4.1.11. kollektiv müqavilələrin və sazişlərin hazırlanmasına köməklik göstərmək;

4.1.12. *Nazirlik sistemi üzrə* fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, təkliflər vermək, bu məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində elmi tədqiqat işlərinin aparılmasını təmin etmək;[61]

*4.1.12-1. tabeliyində olan qurumlar vasitəsilə sığortaedənlər tərəfindən "Sosial sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə əməl edilməsinin elektron monitorinqini aparmaq, monitorinqin nəticələri barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə məlumat vermək;*[62]

*4.1.12-2. sığortaedənlərin dövlət sosial sığorta sistemində fərdi uçot barədə təqdim etdikləri məlumatların dürüstlüyünün yoxlanılmasını və dövlət sosial sığorta sistemində fərdi uçot qaydalarını pozan təqsirkar vəzifəli şəxslər barədə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyət tədbirlərinin tətbiqini təmin etmək;*[63]

4.1.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Nazirliyin fəaliyyətinin təşkili

5.1. Nazirliyin aparatı*, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan* tabeliyində olan digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.)*, habelə Naxçıvan* Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ~~*və Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu*~~ Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.[64]

5.2. Nazirliyin strukturu, aparatının və strukturuna daxil olan qurumların işçilərinin say həddi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri (bundan sonra - nazir) rəhbərlik edir. Nazir Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Nazirin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən *dörd* müavini vardır. Nazirin müavinləri onlara nazir tərəfindən

həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.[65]

5.5. Nazir:

5.5.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. nazir müavinləri arasında vəzifə bölgüsünü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

*5.5.3. Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) əsasnamələrini, strukturuna daxil olmayan tabeliyindəki qurumların (əsasnamələri (nizamnamələri) Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (əsasnamələrini) təsdiq edir;*[66]

*5.5.3-1. bu Əsasnamənin 5.5.3-cü yarımbəndinə uyğun olaraq, Nazirliyin strukturuna daxil olan qurumların, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) nizamnamələrini (əsasnamələrini) təsdiq üçün təqdim edir;*[67]

*5.5.4. Nazirliyin Aparatının, Nazirlik sisteminə daxil olan qurumların fəaliyyətinə nəzarəti təşkil edir və onların işinin əlaqələndirilməsini təmin edir;*[68]

5.5.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin aparatının, *strukturuna daxil olan qurumların (strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.5-1-ci yarımbəndi nəzərə alınmaqla)* strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisati daxilində onların xərclər smetasını təsdiq edir; [69]

*5.5.5-1. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməkhaqları daxilində tabeliyində olan publik hüquqi şəxslərin (Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) ştat cədvəlinin və ayrılmış büdcə təxsisatı çərçivəsində xərclər smetasının təsdiq edilməsinə razılıq verir;*[70]

*5.5.6. Nazirliyin Aparatının işçilərini, Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və onların müavinlərini (Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla), digər işçiləri (bu Əsasnamənin 5.5.6-1-ci yarımbəndi nəzərə alınmaqla) vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;*[71]

*5.5.6-1. Nazirliyin tabeliyindəki publik hüquqi şəxslərin işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə, habelə onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsinə razılıq verir;*[72]

5.5.7. qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmr və sərəncamlar verir, normativ hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

5.5.8. Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.9. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlan ilə münasibətlərdə Nazirliyi təmsil edir, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.10. dövlət büdcəsindən ayrılmış vəsaitin səmərəli xərclənməsini təmin edir;

5.5.11. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.6. Nazir öz vəzifələrinin icrasını müvəqqəti olaraq müavinlərindən birinə tapşıra bilər.

5.7. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Nazirlikdə ictimai əsaslarla fəaliyyət göstərən Elmi-texniki şura yaradıla bilər. Elmi-texniki şura haqqında əsasnamə nazir tərəfindən təsdiq edilir.

5.8. Nazirlikdə nazirdən (kollegiyanın sədri), onun müavinlərindən, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirindən, *Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədrindən* və Nazirliyin digər rəhbər işçilərindən ibarət Nazirliyin kollegiyası yaradılır.[73]

Zəruri hallarda Nazirliyin kollegiyasının tərkibinə, həmçinin mütəxəssislər və alimlər da daxil edilə bilər.

5.9. Nazirliyin kollegiyasının üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.10. Nazirliyin kollegiyasının iclaslarında Nazirliyin fəaliyyətinin əsas istiqamətləri, icra intizamının vəziyyəti, kadr məsələləri, normativ hüquqi aktların layihələri müzakirə edilir, digər mühüm məsələlərə baxılır və müvafiq qərarlar qəbul edilir.

5.11. Nazirliyin kollegiyasının qərarları protokolla rəsmiləşdirilir və nazir tərəfindən təsdiq edilir.

5.12. Nazirliyin kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiyanın sədrinin səsi həlledici hesab edilir.

5.13. Nazirliyin kollegiyasının iclasları nazir tərəfindən çağırılır.

5.14. Nazirliyin kollegiyasının iş qaydasını nazir müəyyənləşdirir.

5.15. Nazirliyin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, nazir bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Nazirliyin kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.16. Nazirliyin kollegiyasının iclaslarına zəruri hallarda digər icra hakimiyyəti orqanlarının, müəssisə, idarə və təşkilatların, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

**Əlavə III**

Azərbaycan Respublikası
Prezidentinin
2011-ci il 16 fevral tarixli 386
nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (bundan sonra — Xidmət) mülkiyyət və təşkilatı-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən Azərbaycan Respublikasının hüquqi şəxsləri, xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri və ~~hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul~~ olan fiziki şəxslər (bundan sonra — işəgötürənlər) tərəfindən Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının əmək qanunvericiliyi sisteminə daxil olan digər normativ hüquqi aktların tələblərinə (bundan sonra - əmək qanunvericiliyi) amal olunmasına dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. [74]

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əsasnaməsini, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən bilavasitə və öz səlahiyyətləri daxilində mərkəzi və yerli icra hakimiyyəti orqanları, həmkarlar ittifaqları, işəgötürənlər birlikləri, yerli özünüidarəetmə orqanları, habelə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adi həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. Xidmətin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Xidmət Bakı şəhərində yerləşir.

### II. Xidmətin fəaliyyət istiqamətləri

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır.

2.1.1. əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi sahəsində dövlət siyasətinin hazırlanmasında iştirak edir və öz səlahiyyətləri daxilində həmin siyasətin həyata keçirilməsini təmin edir;

2.1.2. öz səlahiyyətləri daxilində əmək qanunvericiliyinə amal olunmasına dövlət nəzarətini həyata keçirir;

2.1.3. əmək qanunvericiliyinə amal olunmasına dövlət nəzarəti sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsində iştirak edir;

2.1.4. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

### III. Xidmətin vəzifələri

3.1. Bu əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. öz səlahiyyətləri daxilində əmək qanunvericiliyinə əməl olunması sahəsində, o cümlədən işçilərlə əmək münasibətlərinin əmək müqaviləsi (kontraktı) əsasında tənzimlənməsi, əmək müqaviləsinin (kontraktının) bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinin elektron qaydada qeydiyyata alınması məqsədi ilə *mərkəzləşdirilmiş* elektron informasiya sisteminə *gücləndirilmiş elektron imza vasitəsilə* daxil edilməsi, əməyin ödənilməsi, məzuniyyət və istirahət hüququnun təmin edilməsi, əməyin mühafizəsi, texniki təhlükəsizlik, əmək şəraiti, əmək xəsarəti ilə əlaqədar ödənclərin ödənilməsi, işçilərin və iş yerlərinin attestasiyası, işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortası, iş prosesində əmək və əməyin mühafizəsi tələblərinə (iş davamiyyəti, əməyin təhlükəsizliyi, əməyin gigiyenası, qadınların, *əlilliyi olan şəxslərin*, yaşı 18-dən az olan şəxslərin əməyindən istifadə olunması və s.) riayət edilməsi üzrə dövlət nəzarətini həyata keçirmək;[75]

3.1.2. işçilərin xüsusi geyim və ayaqqabı, digər fərdi mühafizə vasitələri ilə təmin edilməsinə, onlardan istifadə olunmasına, eləcə də zərərli, ağır və yeraltı əmək şəraitində işləyənlərin müvafiq müalicə-profilaktik yeməklərlə, süd və ona bərabər tutulan digər məhsullarla pulsuz təmin olunmasına nəzarəti həyata keçirmək;

3.1.3. əmək məcəlləsinə uyğun olaraq əlavə məzuniyyət və qısaldılmış iş günü hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin siyahısının işəgötürənlər tərəfindən düzgün tətbiq edilməsinə və qanunvericiliyə müvafiq olaraq əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə gora işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərə güzəştlərin və ödənclərin verilməsinə nəzarəti həyata keçirmək;

*3.1.3-1. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq, əməkçi miqrantların hüquqlarının işəgötürənlər tərəfindən təmin edilməsinə nəzarəti həyata keçirmək;*[76]

*3.1.3-2. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-1-ci hissəsində nəzərdə tutulan hallarda işçinin elektron informasiya sistemində qüvvədə olan əmək müqaviləsi bildirişinin qüvvədən düşmüş hesab edilməsi barədə inzibati akt formasında qərar qəbul etmək, bununla bağlı işçinin müraciəti əsasında əmək kitabçasında müvafiq qeydlər aparmaq;*[77]

3.1.4. öz səlahiyyətləri daxilində istehsalatda baş verən bədbəxt hadisələrin istehsalatla *bağlılığını araşdırmaq* və uçotunu aparmaq; [78]

3.1.5. əmək və əməyin mühafizəsi sahəsində işəgötürənlərin işçilər və həmkarlar ittifaqları təşkilatları ilə qarşılıqlı əməkdaşlığına köməklik göstərmək;

3.1.6. istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və ya yenidən qurulması zamanı öz səlahiyyətləri daxilində digər nəzarət orqanları ilə birlikdə əməyin mühafizəsi tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirmək;

3.1.7. öz səlahiyyətləri daxilində yeni tikilmiş və ya yenidən qurulmuş istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin istismara buraxılmasına razılığın verilməsi məsələsinə baxmaq;

3.1.8. öz səlahiyyətləri daxilində yeni və ya yenidən qurulmuş müəssisələrin, obyektlərin, istehsalat vasitələrinin əməyin mühafizəsi tələblərinə uyğunluğunu təyin edən sertifikat-pasport vermək;

3.1.9. müəssisələrdə əməyin təhlükəsizliyi tələblərinə uyğun gəlməyən və işçilərin sağlamlığı, yaxud həyati üçün təhlükə törədən işi və ya istehsal vasitələrinin istismarını, onlar əməyin təhlükəsizliyi tələblərinə uyğunlaşanadək, qanunvericiliklə müəyyən edilmiş qaydada dayandırmaq;

3.1.10. öz səlahiyyətləri daxilində əmək qanunvericiliyinin pozulmasında təqsirkar şəxsləri Azərbaycan Respublikasının inzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada inzibati məsuliyyətə cəlb etmək və digər məsuliyyətə cəlb olunması üçün müvafiq dövlət orqanları qarşısında məsələ qaldırmaq;

3.1.11. müəssisə və təşkilatlarda əməyin mühafizəsi xidmətlərinin yenidən təşkili və ya ləğv edilməsinə razılıq verilməsi barədə işəgötürənlərin müraciətlərinə baxmaq;

3.1.12. işəgötürənlərə və işçilərə əmək qanunvericiliyinin tətbiqi barədə metodiki köməklik göstərmək, zəruri hallarda seminarlar təşkil etmək;

3.1.13. vətəndaşların qəbulunu təşkil etmək, ərizə, təklif və şikayətlərə qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə baxılmasını təmin etmək;

3.1.14. hər ilin yekununda kütləvi informasiya vasitələrində fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə Azərbaycan Respublikasında mövcud vəziyyət barədə məlumat dərc etdirmək, eləcə də Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Beynəlxalq Əmək Təşkilatına hesabatlar hazırlamaq;

3.1.15. qanunvericiliyə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

**IV. Xidmətin hüquqları**

4.1. Xidmət öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. işəgötürənlərə əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına dair öz

səlahiyyətləri daxilində göstərişlər vermək, öz səlahiyyətləri daxilində qərarlar qəbul etmək və onların yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

4.1.2. öz səlahiyyətləri daxilində əmək qanunvericiliyinin pozulmasında təqsirkar şəxslərdən yol verdikləri hüquq pozuntularının aradan qaldırılmasını tələb etmək;

4.1.3. Xidmətin *tabeliyində olan qurumlar* vasitəsilə, yaxud qanunvericiliyə uyğun olaraq dövlət sanitariya-epidemioloji nəzarət xidmətinin laboratoriyalarını və müvafiq qaydada akkreditasiya olunmuş digər laboratoriyaları cəlb etməklə, nəzarət qaydasında əmək şəraitinin ekspertizasını keçirmək;[79]

4.1.4. öz səlahiyyətləri daxilində obyektlərin layihələrinin (nümunələrin) əməyin mühafizəsi və texniki təhlükəsizlik normalarının tələblərinə uyğunluğunu müəyyən etmək məqsədi ilə, müvafiq təşkilatları və mütəxəssisləri cəlb etməklə həmin layihələrin (nümunələrin) ekspertizasının, eləcə də insanın sağlamlığına təsirini müəyyənləşdirmək ucun iş prosesində istifadə olunan maddələrin, xammalın, materialların texnoloji, yanğın-texniki, sanitariya-gigiyenik, tibbi-bioloji və s. ekspertizalarının keçirilməsini sifarişçi və icraçıdan tələb etmək;

4.1.5. əmək qanunvericiliyi pozularaq əmək münasibətləri prosesində işçiyə və işəgötürənə vurulan maddi ziyan aşkar edildikdə, bu barədə qərar, rəy, arayış vermək;

4.1.6. istehsalatda işçiyə dəymiş zərərin əvəzinin ödənilməsinin vaxtında icra edilməsi və əməkhaqlarının vaxtında ödənilməsinin təmin edilməsi ilə bağlı öz səlahiyyətləri daxilində tədbirlər görmək;

4.1.7. qanunvericiliyə əsasən müəssisə və təşkilatlarda işçilərə əlavə məzuniyyət və qısaldılmış iş günü hüququ verən əmək şəraitinin müəyyənləşdirilməsi və təmin edilməsi üzrə sənədləri yoxlamaq və bu barədə qanunvericiliyə zidd olan əmr və sərəncamların ləğv edilməsi haqqında göstəriş vermək;

4.18. öz səlahiyyətləri daxilində müəssisələrdə əməyin mühafizəsi tədbirlərinin maliyyələşdirilməsi üçün ayrılan vəsaitin təyinatı üzrə istifadə edilməsinə nəzarət etmək;

4.1.9. əməyin mühafizəsi üzrə normativ aktların və dövlət standartlarının hazırlanmasında iştirak etmək;

4.1.10. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətin aparatı, bölgələr üzrə bölmələr~~, əməyin mühafizəsi üzrə stasionar və səyyar laboratoriyalar~~ (bundan sonra — yerli orqanlar)*, tabeliyində olan qurumlar* və Naxçıvan Muxtar Respublikasının Dövlət Əmək Müfəttişliyi Xidməti Xidmətin vahid sistemini təşkil edir.[80]

5.2. Xidmətə Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.

5.3. Xidmətin rəisi Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyalarının həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.4. Xidmətin rəisinin, təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən üç müavini vardır.

~~5.5. Xidmətin yerli orqanlarının rəisləri Xidmətin rəisinin təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.~~[81]

5.6. Xidmətin aparatının və yerli orqanlarının inzibati vəzifə tutan işçiləri "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq qaydada işə qəbul edilirlər.

5.7. Xidmətin rəisi:

5.7.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.7.2. Xidmətin yerli orqanlarının fəaliyyətini əlaqələndirir, onlara əməli-metodiki köməklik göstərilməsini təşkil edir;

5.7.3. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.7.4. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin aparatının və yerli orqanlarının strukturunu, xərclər smetasını və ştat cədvəlini təsdiq edilmək üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir;

5.7.5. öz səlahiyyətləri daxilində Xidmətin işçilərini işə qəbul edir;

5.7.6. Xidmətin aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

5.7.7. Xidmət üçün ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsini təmin edir;

5.7.8. Xidmətin rəis müavinləri və təsdiq edilmiş ştat cədvəlinə uyğun olaraq Xidmətin aparatının struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsünü aparır;

5.7.9. Xidmətin aparatının və yerli orqanlarının işçiləri barədə intizam tənbehi tədbirlərinin görülməsi üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qarşısında məsələ qaldırır, Xidmətin aparatının və yerli orqanların işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması barədə tədbirlərin həyata keçirilməsini təmin edir;

5.7.10. Xidmətin işçilərinə icrası məcburi olan əmrlər və göstərişlər verir;
5.7.11. Xidmətin *qəbul etdiyi* qərarlardan verilmiş şikayətlərə baxır və əsas olduqda, onları dəyişdirmək və ya ləğv etmək barədə qərar qəbul edir;[82]
5.7.12. Xidməti dövlət və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqı və işəgötürənlər birlikləri, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə vəkalətnaməsiz təmsil edir;
5.7.13. Xidmətin strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinə təkliflər verir;
5.7.14. Xidmətin fəaliyyəti barədə Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinə mütəmadi olaraq hesabat verir;
5.7.15. dövlət büdcəsindən Xidmətə ayrılmış vəsaitlərin xərclənməsinə dair hesabatları Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir;
5.7.16. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.
5.8. Xidmətin rəisi, rəis müavinləri, ~~*aparat rəhbəri və aparat rəhbərinin müavini,*~~ şöbə müdirləri (ümumi şöbə, mühasibat və kadr şöbəsi istisna olmaqla), sektor müdirləri, Xidmətin yerli orqanlarının rəisləri və rəis müavinləri - baş əmək müfəttişləri, həmçinin Xidmətin aparatının və onun yerli orqanlarının baş əmək müfəttişləri və əmək müfəttişləri Xidmətin vəzifəli şəxsləridirlər. [83]
~~5.9. Xidmətin vəzifəli şəxsləri xidməti möhürə malikdirlər.~~[84]
5.10. Xidmətin fəaliyyətinin təşkil edilməsi məqsədilə Xidmətdə şura yaradılır. Şuranın tərkibinə Xidmətin rəisi (şuranın sədri), Xidmətin rəis müavinləri və Xidmətin digər rəhbər işçiləri daxil edilir.
5.11. Şura üzvlərinin sayı və tərkibi Xidmətin rəisinin təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən təsdiq edilir.
5.12. Şurada Xidmətin əsas fəaliyyəti və işinin təkmilləşdirilməsi ilə bağlı məsələləri baxılır, əmək və əməyin mühafizəsi məsələlərinə dövlət nəzarətinin həyata keçirilməsi problemləri, Xidmətin qərarlarının icrası, Xidmətin aparatının struktur bölmələrinin və yerli orqanlarının fəaliyyəti müzakirə edilir və müvafiq qərarlar qəbul edilir. Zəruri hallarda müzakirələrə işəgötürənlərin və həmkarlar ittifaqının səlahiyyətli nümayəndələri dəvət oluna bilərlər.
5.13. Şuranın qərarları protokolla rəsmiləşdirilir və Xidmətin rəisi tərəfindən təsdiq edilir.
5.14. Xidmətin fəaliyyəti ilə bağlı şuranın üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, şuranın sədri Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinə yaranan fikir ayrılıqları haqqında məlumat verərək öz qərarını həyata keçirir.
5.15. Şuranın iş qaydası Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən müəyyən edilir.
5.16. Xidmətin vəzifəli şəxsləri təsviri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş fərqləndirici nişanı olan geyim forması ilə təmin edilirlər.

**~~Əlavə IV~~**

~~Azərbaycan Respublikası Prezidentinin~~
~~2011-ci il 16 fevral tarixli 386~~
~~nömrəli Fərmanı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

**~~Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti haqqında~~**

**~~ƏSASNAMƏ~~**

**~~I. Ümumi müddəalar~~**

~~1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti (bundan sonra — Xidmət) işaxtaran və işsiz *şəxslərin* sosial müdafiəsi tədbirlərini həyata keçirən icra hakimiyyəti orqanıdır.~~ [85]
~~1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əsasnaməsini, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin əmr və sərəncamlarını və bu~~

Əsasnaməni rəhbər tutur.

1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən bilavasitə və öz səlahiyyətləri daxilində mərkəzi, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqları ilə, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün işəgötürənlərlə, habelə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. Xidmətin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti, *işsizlikdən sığorta vəsaiti* və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir. [86]

1.6. Xidmət Bakı şəhərində yerləşir.

## II. Xidmətin fəaliyyət istiqamətləri

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Azərbaycan Respublikasında *sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsi və işsizliyin yaranması hallarının qarşısının alınması,* əhalinin məşğulluğunun təmin olunması sahəsində qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin edir; [87]

*2.1.2. qanunla müəyyən olunmuş qaydada işaxtaran və işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi, peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması, əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşdırılması məqsədilə aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsini təmin edir;* [88]

2.1.3. qanuna uyğun olaraq, *sığorta ödənişinin* təyin olunmasını təmin edir və ödənilməsini təşkil edir; [89]

2.1.4. qanunvericiliyə uyğun olaraq müəssisə və təşkilatlarda kvotaya müvafiq olaraq müəyyən edilmiş iş yerləri hesabına sosial müdafiəyə *xüsusi* ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən *şəxslərin* işlə təmin edilməsi məqsədi ilə müvafiq tədbirlər həyata keçirir; [90]

2.1.5. işəgötürənlərdən boş (vakant) iş yerləri haqqında məlumat toplayır və bu məlumatı istifadə edir;

2.1.6. işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədi ilə aktiv məşğulluq tədbirləri (əmək yarmarkaları, əmək birjaları və s.) həyata keçirir; [91]

2.1.7. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. Xidmətin vəzifələri

3.1. Bu əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. *Azərbaycan Respublikasının "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" qanunları* ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsini təmin etmək; [92]

3.1.2. Xidmətin illik fəaliyyətini müəyyən edən respublika məşğulluq proqramının layihəsini müvafiq qaydada hazırlayıb Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etmək;

3.1.3. əmək bazarında mövcud vəziyyəti öyrənməklə, iş qüvvəsinə olan tələb və təklifləri təhlil etmək, əmək ehtiyatlarına, işçi qüvvəsinin hərəkətinə dair proqnozlar hazırlamaq, təkliflər vermək;

*3.1.3-1. işsizlikdən sığortanın müntəzəmliyinə dövlət təminatı üçün tədbirlər görmək;* [93]

*3.1.3-2. işsizlikdən sığorta ödənişinin və şəxsin peşə hazırlığına cəlb olunduğu dövrdə təqaüdün vaxtında ödənilməsini təmin etmək;* [94]

3.1.4. işaxtaran və işsiz *şəxslərin* sosial müdafiəsi tədbirlərinin maliyyələşdirilməsinə dair proqnozlar hazırlamaq və müvafiq proqramlarda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək; [95]

*3.1.4-1. sığortaolunanlara və sığortaedənlərə işsizlikdən sığorta ilə bağlı ödənişsiz məlumat vermək;* [96]

*3.1.4-2. məşğulluq növünü, iş yerini və iş rejimini seçmək məqsədi ilə sığortaolunanlara peşəyönümünə, peşə hazırlığına və əlavə təhsilə dair pulsuz məsləhət vermək;*

*3.1.5. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, məşğulluğa kömək məqsədilə şəxslərin işaxtaran və işsiz kimi qeydiyyata alınmasını təmin etmək;* [97]

*3.1.6. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, işaxtaran və işsiz şəxslər üçün aktiv məşğulluq tədbirləri həyata keçirmək;*

3.1.7. işaxtaran və işsiz vətəndaşlar üçün peşəyönümü və məsləhət xidməti, regional tədris mərkəzləri tədris kabinələri və əmək birjaları yaratmaq, *özünüməşğulluğa kömək*

*göstərmək;* [98]

3.1.8. yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə birlikdə işaxtaranların müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə mülkiyyət formasından asılı olmayaraq müəssisələrdə həmin şəxslərin müqavilələr üzrə ödənişli ictimai işlərə cəlb olunmasını təmin etmək;

*3.1.8-1. sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin və sosial müəssisələr yaratmaq və məqsədli proqramlar həyata keçirmək;* [99]

*3.1.9. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda sığorta ödənişinin dayandırılması ilə bağlı tədbirlər görmək;* [100]

*3.1.9-1. işsizlikdən sığorta vəsaitini idarə etmək, həmin vəsaitdən "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məqsədlər üçün və təyinatı üzrə istifadəni təmin etmək;* [101]

*3.1.9-2. sığorta ödənişlərinin, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən işaxtaran və işsiz kimi qeydiyyata alınmış şəxslər üçün nəzərdə tutulan aktiv məşğulluq tədbirlərin maliyyələşdirilməsini təmin etmək;* [102]

*3.1.9-3. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar izahatlar vermək;*

3.1.10. əhalinin məşğulluğu və əmək bazarının vəziyyəti barədə kütləvi informasiya vasitələrində məlumatlar dərc etdirmək;

3.1.11. qanunvericiliklə müəyyən olunmuş qaydada inzibati tənbeh tədbirlərinin tətbiqini, eləcə də qanunvericilikdə nəzərdə tutulmuş hallarda təyinatı üzrə müvafiq vəsaitin köçürülməsinə nəzarəti təmin etmək;

3.1.12 əhalinin məşğulluğu haqqında statistik hesabatları aidiyyəti üzrə müvafiq dövlət orqanlarına təqdim etmək;

3.1.13 Xidmətin maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən müasir informasiya texnologiyaları ilə təmin edilməsi barədə təkliflər vermək;

3.1.14. vətəndaşların qəbulunu təşkil etmək, ərizə, təklif və şikayətlərə qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə baxılmasını təmin etmək;

3.1.15. qanunvericiliyə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

## IV. Xidmətin hüquqları

4.1. Xidmət öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. qanunvericiliklə müəyyən edilmiş qaydada sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən *şəxslərin* kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul edilməsi, qanunvericilikdə nəzərdə tutulmuş hallarda təyinatı üzrə müvafiq vəsaitin köçürülməsi ilə bağlı öz səlahiyyətləri daxilində müvafiq tədbirlər görmək; [103]

4.1.2. *işsizlikdən sığorta və məşğulluq sahəsində Azərbaycan Respublikasının normativ hüquqi aktlarının* təkmilləşdirilməsinə dair müvafiq təklifləri Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etmək; [104]

4.1.3. işəgötürənlər tərəfindən təqdim olunmuş məlumatların uzlaşdırılmasını həyata keçirmək;

4.1.4. öz səlahiyyətləri daxilində dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.5. öz səlahiyyətləri daxilində məşğulluğa dair yerli və beynəlxalq tədbirlərdə Azərbaycan Respublikasının Əmək Əhalinin Sosial Müdafiəsi Nazirliyini təmsil etmək;

4.1.6. qanunvericiliklə müəyyən edilmiş qaydada xarici və yerli ekspertləri, məsləhətçiləri öz fəaliyyətinə cəlb etmək;

4.1.7. öz səlahiyyətləri daxilində digər dövlət orqanları ilə əməkdaşlıq etmək;

4.1.8. işəgötürənlərdən məşğulluq haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq hesabatların vaxtında təqdim edilməsini tələb etmək;

4.1.9. öz səlahiyyətləri daxilində fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, təkliflər vermək;

4.1.10. öz işçilərinin peşə hazırlığının və ixtisas keyfiyyətlərinin artırılması məqsədilə tədbirlər görmək, o cümlədən onların yerli və beynəlxalq səviyyədə keçirilən təlim kurslarında, seminarlarda, konfranslarda və digər bu kimi tədbirlərdə iştirakını təmin etmək;

4.1.11. məşğulluq sahəsində beynəlxalq təcrübəni öyrənmək, qanunvericiliklə müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində müvafiq beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təcrübə mübadiləsi aparmaq;

4.1.12. nəşr, reklam-informasiya fəaliyyətini həyata keçirmək;

4.1.12. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Xidmətin fəaliyyətinin təşkili

_

5.1. Xidmətin aparatı, şəhər, rayon, məşğulluq orqanları (bundan sonra - yerli orqanlar) və Naxçıvan Muxtar Respublikasının Məşğulluq xidməti və Xidmətin fəaliyyətini təmin edən digər qurumlar (tədris mərkəzləri və s) Xidmətin vahid sistemini təşkil edir.

5.2. Xidmətə Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.

5.3. Xidmətin rəisi Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyalarının həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.4. Xidmətin rəisinin, təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən üç müavini vardır.

5.5. Xidmətin yerli orqanlarının rəhbərləri Xidmətin rəisinin təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

5.6. Xidmətin aparatının və yerli orqanlarının inzibati vəzifə tutan işçiləri "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq qaydada işə qəbul edilirlər.

5.7. Xidmətin rəisi:

5.7.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.7.2. Xidmətin yerli orqanlarının və fəaliyyətini təmin edən digər qurumların fəaliyyətini əlaqələndirir, onlara əməli-metodiki köməklik göstərilməsini təşkil edir;

5.7.3. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.7.4. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin aparatının və yerli orqanlarının strukturunu, xərclər smetasını və ştat cədvəlini təsdiq edilmək üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir;

5.7.5. öz səlahiyyətləri daxilində Xidmətin işçilərini işə qəbul edir;

5.7.6. Xidmətin aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

5.7.7. Xidmət üçün ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsini təmin edir;

5.7.8. Xidmətin rəis müavinləri və təsdiq edilmiş ştat cədvəlinə uyğun olaraq Xidmətin aparatının struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsünü aparır;

5.7.9. Xidmətin aparatının və yerli orqanlarının işçiləri barədə intizam tənbehi tədbirlərinin görülməsi üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qarşısında məsələ qaldırır, Xidmətin aparatının və yerli orqanların işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması barədə tədbirlərin həyata keçirilməsini təmin edir;

5.7.10. Xidmətin işçilərinə icrası məcburi olan əmrlər və göstərişlər verir;

5.7.11. Xidməti dövlət və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqı və işəgötürənlər birlikləri, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə vəkalətnaməsiz təmsil edir;

5.7.12. Xidmətin strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinə təkliflər verir;

5.7.13 Xidmətin fəaliyyəti barədə Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinə mütəmadi olaraq hesabat verir;

5.7.14. dövlət büdcəsindən Xidmətə ayrılmış vəsaitlərin xərclənməsinə dair hesabatları Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir;

5.7.15. Xidmətin *qəbul etdiyi* qərarlardan verilmiş şikayətlərə baxır və əsas olduqda, onları dəyişdirmək və ya ləğv etmək barədə qərar qəbul edir;[105]

5.7.16. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.8. Xidmətin fəaliyyətinin təşkil edilməsi məqsədilə Xidmətdə şura yaradılır. Şuranın tərkibinə Xidmətin rəisi (şuranın sədri), Xidmətin rəis müavinləri və Xidmətin digər rəhbər işçiləri daxil edilir.

5.9. Şura üzvlərinin sayı və tərkibi Xidmətin rəisinin təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən təsdiq edilir.

5.10. Şurada Xidmətin əsas fəaliyyəti və işinin təkmilləşdirilməsi ilə bağlı məsələləri baxılır, Xidmətin aparatının struktur bölmələrinin və yerli orqanlarının fəaliyyəti müzakirə edilir və müvafiq qərarlar qəbul edilir.

5.11. Şuranın qərarları protokolla rəsmiləşdirilir və Xidmətin rəisi tərəfindən təsdiq edilir.

5.12. Xidmətin fəaliyyəti ilə bağlı şuranın üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, şuranın sədri Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinə yaranan fikir ayrılıqları haqqında məlumat verərək öz qərarını həyata keçirir.

5.15. Şuranın iş qaydası Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən müəyyən edilir.

*Əlavə V*

*Azərbaycan Respublikası Prezidentinin*
*2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı*
*ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti haqqında**[106]

**ƏSASNAMƏ**

**I. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti (bundan sonra – Xidmət) əhalinin aztəminatlı təbəqələrinin, ahıl vətəndaşların, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasını, xüsusi ehtiyacı olan şəxslərin sosial müdafiəsi tədbirlərini həyata keçirən icra hakimiyyəti orqanıdır.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əsasnaməsini, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən bilavasitə və öz səlahiyyətləri daxilində mərkəzi, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqları, habelə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. Xidmətin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Xidmət Bakı şəhərində yerləşir.

**II. Xidmətin fəaliyyət istiqamətləri**

2.1. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. əhalinin sosial müdafiəsi sahələrində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir öz səlahiyyətləri daxilində həmin siyasətin həyata keçirilməsini təmin edir;

2.1.2. öz səlahiyyətləri daxilində yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikasının, insan alveri qurbanlarının sosial reabilitasiyasının və penitensiar müəssisələrdə caza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının həyata keçirir.

2.1.3. özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc əvəzində aylıq müavinətin təyin edilib ödənilməsini həyata keçirir;

2.1.4. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial xidmət göstərilməsini təşkil edir, tabeliyində olan sosial xidmət müəssisələrinin fəaliyyətini və inkişafını təmin edir;[107]

2.1.5. öz səlahiyyətləri daxilində əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi ilə bağlı müvafiq proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak edir, bu sahədə dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir;

2.1.6. əlillərin və sağlamlıq imkanları məhdud uşaqların yaradıcılıq imkanlarının genişləndirilməsi, onların cəmiyyətə inteqrasiyası ilə bağlı müxtəlif tədbirlər həyata keçirir;

2.1.7. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

**III. Xidmətin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. Xidmətin fəaliyyətini təmin etmək məqsədi ilə illik fəaliyyət planını Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etmək;

3.1.2. ünvanlı dövlət sosial yardımı üzrə monitorinq və qiymətləndirmə sistemini yaratmaq;

3.1.3. qanunvericiliyə uyğun olaraq aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının təyin olunmasını təmin etmək;

3.1.4. dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən sosial müavinətlərin qanunvericiliyə uyğun olaraq təyin edilməsi və ödənilməsini təmin etmək, öz səlahiyyətləri daxilində əhalinin ayrı-ayrı kateqoriyalarına sosial-məişət xidməti üzrə kompleks tədbirləri aidiyyəti qurumlarla birlikdə həyata keçirmək;

3.1.5. öz səlahiyyətləri daxilində Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin olunmuş təqaüdlərin ödənilməsini təşkil etmək;

3.1.6. yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikası tədbirlərini həyata keçirmək, həmin şəxslərin

valideynləri və ya digər qanuni nümayəndələri barəsində aidiyyəti qurumlarla birlikdə fərdi profilaktik işi təşkil etmək;

3.1.7. öz səlahiyyətləri daxilində yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrinin, habelə yetkinlik yaşına çatmayanlara və onların ailələrinə sosial xidmət göstərən digər müəssisə və xidmətlərin , fəaliyyətinə nəzarət etmək, həmin müəssisə və xidmətlər şəbəkəsinin inkişafına dair təkliflərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etmək;

3.1.8. yetkinlik yaşına çatmayanlara və onların ailələrinə sosial xidmətlər göstərən müəssisə və xidmətlərin fəaliyyətinə sosial reabilitasiyanın müasir metodikalarını və texnologiyalarını tətbiq etmək;

3.1.9. öz səlahiyyətləri daxilində penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə tədbirləri həyata keçirmək, caza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə birdəfəlik pul müavinəti vermək;

3.1.10. qanunvericiliyə uyğun olaraq insan alveri qurbanlarının sosial reabilitasiyası üzrə tədbirləri həyata keçirmək, bu məqsədlə insan alveri qurbanlarına yardım mərkəzlərinin yaradılması barədə aidiyyəti üzrə təkliflər vermək və öz səlahiyyətləri daxilində həmin mərkəzlərin fəaliyyətinə nəzarət etmək;

3.1.11. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq çətin həyat şəraitində olan şəxslərə (ailələrə) və sosial müdafiəyə xüsusi ehtiyacı olan digər şəxslərə (ailələrə), habelə Xidmətin tabeliyindəki sosial xidmət müəssisələrində yaşayan bu kateqoriyadan olan şəxslərə sosial xidmət göstərilməsini təşkil etmək, müvafiq sosial xidmətlərin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üzrə tədbirlər görmək və bu sahədə öz səlahiyyətləri daxilində nəzarəti həyata keçirmək;[108]

3.1.12. əlillərin mənzil problemlərinin həllinə köməklik göstərilməsi və onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə bağlı öz səlahiyyətləri daxilində müvafiq tədbirlər görmək;

3.1.13. əlillərin və sağlamlıq imkanları məhdud uşaqları sanatoriya-kurort müalicəsi üzrə kompleks tədbirləri aidiyyəti qurumlarla birlikdə həyata keçirmək;

3.1.14. əlillər və sağlamlıq imkanları məhdud uşaqlarla bağlı məlumat bazasının təşkili, internet saytının yaradılması, seminar və konfransların təşkil edilməsi, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinə dair təhlillər aparmaqla hesabatların hazırlanması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili, bədən tərbiyəsi və idmana cəlb etməklə onların beynəlxalq yarışlarda iştirakı üçün şəraitin yaradılması, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar üçün ixtisaslaşdırılmış idman sağlamlıq mərkəzlərinin yaradılması və istedadlı əlillərin və sağlamlıq imkanları məhdud uşaqların aşkar edilməsi məqsədi ilə öz səlahiyyətləri daxilində müvafiq tədbirlər görmək;

3.1.15. öz səlahiyyətləri daxilində əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara müvafiq yardımların göstərilməsini, ictimaiyyətin diqqətini onların problemlərinə cəlb edilməsini, sağlamlığı məhdud uşaqların təhsili ilə bağlı onlara texniki yardım göstərilməsini təmin etmək;

3.1.16. əhalinin sosial müdafiəsi barədə kütləvi informasiya vasitələrində məlumatlar dərc etdirmək;

3.1.17. öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.18. vətəndaşların qəbulunu təşkil etmək, ərizə, təklif və şikayətlərə qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə baxılmasını təmin etmək;

3.1.19. qanunvericiliyə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

## IV. Xidmətin hüquqları

4.1. Xidmət öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. aztəminatlı ailələrin, çətin həyat şəraitində olan şəxslərin (ailələrin) sosial müdafiəsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etmək;[109]

4.1.2. öz səlahiyyətləri daxilində dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.3. qanunvericiliyə müvafiq olaraq tabeliyində idarə və təşkilatların yaradılması, ləğvi və yenidən təşkili barədə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təkliflər vermək;

4.1.4. öz səlahiyyətləri daxilində əhalinin sosial təminatına dair yerli və beynəlxalq tədbirlərdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini təmsil etmək;

4.1.5. qanunvericiliklə müəyyən edilmiş qaydada xarici və yerli ekspertləri, məsləhətçiləri öz fəaliyyətinə cəlb etmək;

4.1.6. əhalinin sosial müdafiəsi sahəsində beynəlxalq təcrübəni öyrənmək, qanunvericiliklə müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində müvafiq beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təcrübə mübadiləsi aparmaq;

4.1.7. öz səlahiyyətləri daxilində digər dövlət orqanları ilə əməkdaşlıq etmək

4.1.8. nəşr, reklam-informasiya fəaliyyətini həyata keçirmək;

4.1.9. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətin aparatı, şəhər, rayon əhalinin sosial müdafiəsi mərkəzləri (bundan sonra - yerli orqanlar), Xidmətin tabeliyində olan sosial xidmət müəssisələri və Xidmətin fəaliyyətini təmin edən digər qurumlar Xidmətin vahid sistemini təşkil edir.[110]

*5.2. Xidmətə Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.*

*5.3. Xidmətin rəisi Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyalarının həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.*

*5.4. Xidmətin rəisinin, təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən iki müavini vardır.*[111]

*5.5. Xidmətin aparatının və yerli orqanlarının inzibati vəzifə tutan işçiləri "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq qaydada işə qəbul edilirlər.*

*5.6. Xidmətin yerli orqanları istisna olmaqla, tabeliyində olan qurumların işçiləri Xidmətin rəisinin təqdimatı əsasında Azərbaycan Respublikası Əmək və əhalinin sosial müdafiəsi nazirinin əmri ilə vəzifəyə təyin və vəzifədən azad edilirlər.*

*5.7. Xidmətin rəisi:*

*5.7.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;*

*5.7.2. Xidmətin yerli orqanlarının və tabeliyində olan digər qurumların fəaliyyətini əlaqələndirir, onlara əməli-metodiki köməklik göstərilməsini təşkil edir;*

*5.7.3. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;*

*5.7.4. öz səlahiyyətləri daxilində Xidmətin işçilərini işə qəbul edir;*

*5.7.5. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin aparatının və yerli orqanlarının strukturunu, xərclər smetasını və ştat cədvəlini təsdiq edilmək üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir;*

*5.7.6. Xidmətin aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir;*

*5.7.7. Xidmət üçün ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsini təmin edir;*

*5.7.8. Xidmətin rəis müavinləri və təsdiq edilmiş ştat cədvəlinə uyğun olaraq Xidmətin aparatının struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsünü aparır;*

*5.7.9. Xidmətin aparatının və yerli orqanlarının işçiləri barədə intizam tənbehi tədbirlərinin görülməsi üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qarşısında məsələ qaldırır, Xidmətin aparatının və yerli orqanların işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması barədə tədbirlərin həyata keçirilməsini təmin edir;*

*5.7.10. Xidmətin işçilərinə icrası məcburi olan əmrlər və göstərişlər verir;*

*5.7.11. Xidməti dövlət və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqı və işəgötürənlər birlikləri, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə vəkalətnaməsiz təmsil edir;*

*5.7.12. Xidmətin strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinə təkliflər verir;*

*5.7.13 Xidmətin fəaliyyəti barədə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə mütəmadi olaraq hesabat verir;*

*5.7.14. Xidmətin qəbul etdiyi qərarlardan verilmiş şikayətlərə baxır və əsas olduqda, onları dəyişdirmək və ya ləğv etmək barədə qərar qəbul edir;*[112]

*5.7.15. dövlət büdcəsindən Xidmətə ayrılmış vəsaitlərin xərclənməsinə dair hesabatları Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir;*

*5.7.16. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.*

*5.8. Xidmətin fəaliyyətinin təşkil edilməsi məqsədilə Xidmətdə şura yaradılır. Şuranın tərkibinə Xidmətin rəisi (şuranın sədri), Xidmətin rəis müavinləri və Xidmətin digər rəhbər işçiləri daxil edilir.*

*5.9. Şura üzvlərinin sayı və tərkibi Xidmətin rəisinin təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən təsdiq edilir.*

*5.10. Şurada Xidmətin əsas fəaliyyəti və işinin təkmilləşdirilməsi ilə bağlı məsələləri baxılır, Xidmətin aparatının struktur bölmələrinin və yerli orqanlarının fəaliyyəti müzakirə edilir və zəruri hallarda müvafiq qərarlar qəbul edilir.*

*5.11. Şuranın qərarları protokolla rəsmiləşdirilir və Xidmətin rəisi tərəfindən təsdiq edilir.*

*5.12. Xidmətin fəaliyyəti ilə bağlı şuranın üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, şuranın sədri Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinə yaranan fikir ayrılıqları haqqında məlumat verərək öz qərarını həyata keçirir.*

*5.13. Şuranın iş qaydası Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən müəyyən edilir.*

**_Əlavə VI_**

*Azərbaycan Respublikası Prezidentinin*
*2015-ci il 16 mart tarixli 484 nömrəli Fərmanı*
*ilə*

*TƏSDİQ EDİLMİŞDİR*[113]

**_Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti haqqında_**

**_ƏSASNAMƏ_**

## ~~1. Ümumi müddəalar~~

~~1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti (bundan sonra - Xidmət) tibbi-sosial ekspertiza əsasında əlilliyin və 18 yaşınadək uşaqların sağlamlıq imkanlarının məhdudluğunun (bundan sonra - əlillik) qiymətləndirilməsi, əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud olan uşaqların (bundan sonra - əlilliyi olan şəxs) sosial müdafiə tədbirlərinə ehtiyaclarını müəyyən edən, onların reabilitasiyasını həyata keçirən icra hakimiyyəti orqanıdır.~~

~~1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) Əsasnaməsini və qərarlarını, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.~~

~~1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqları, habelə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.~~

~~1.4. Xidmət müstəqil balansa, istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.~~

~~1.5. Xidmətin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsaitlər və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.~~

~~1.6. Xidmət Bakı şəhərində yerləşir.~~

## ~~2. Xidmətin fəaliyyət istiqamətləri~~

~~2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:~~

~~2.1.1. əlilliyi olan şəxslər üçün cəmiyyət həyatının bütün sahələrində iştirak etmək imkanının, öz fərdi qabiliyyət və maraqlarına müvafiq surətdə dolğun həyat sürməsinə kömək göstərən lazımi şəraitin yaradılması, əlilliyi doğuran səbəblərin aradan qaldırılması, əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində dövlət siyasətinin hazırlanmasında iştirak edir və həmin siyasətin həyata keçirilməsini təmin edir;~~

~~2.1.2. tibbi-sosial ekspert komissiyaları vasitəsilə tibbi-sosial ekspertiza keçirərək, əlilliyinin qiymətləndirilməsi əsasında şəxsin sosial müdafiə tədbirlərinə ehtiyaclarını müəyyən edir;~~

~~2.1.3. əlilliyi olan şəxslərin reabilitasiyası ilə bağlı müvafiq proqramların hazırlanmasını və həyata keçirilməsini təmin edir.~~

## ~~3. Xidmətin vəzifələri~~

~~3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:~~

~~3.1.1. tibbi-sosial ekspert komissiyalarının tibbi etika prinsipinə əsaslanan müayinələri aparmasını təmin etmək, müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı şəxsin digər şəxslərlə bərabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli, və ya hissiyyat pozuntularının olmasını qiymətləndirmək;~~

~~3.1.2. əlilliyin və reabilitasiya imkanlarının qiymətləndirilməsi əsasında şəxsin əlillik dərəcəsi, onun müddəti, səbəbi və əlilliyin baş vermə vaxtı barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən qərar qəbul edilməsini təmin etmək;~~

~~3.1.3. tibbi-sosial ekspert komissiyaları tərəfindən əlilliyi müəyyən olunan şəxsin fərdi reabilitasiya proqramının tərtib olunmasına və icrasına nəzarət etmək;~~

~~3.1.4. əlilliyi olan şəxslərin sosial müdafiə tədbirlərinə (protez-ortopedik məmulatlarının, eşitmə aparatlarının, kreslo-veloarabalar və digər reabilitasiya vasitələrinin verilməsi, nəqliyyat və hərəkət vasitələri ilə təmin olunma, xüsusi təhsil alma, evdə sosial-məişət xidməti göstərilmə və s.) ehtiyacları barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən tibbi göstərişlər verilməsini təmin etmək;~~

~~3.1.5. istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində işçinin peşə əmək qabiliyyətini, sağlamlığı xəsarət yetirilmə nəticəsində və ya başqa şəkildə pozulmuş fiziki şəxsin əmək qabiliyyətini itirmə faizini, habelə istehsalatda bədbəxt hadisələr və peşə xəstəliyi ilə əlaqədar işçinin (sağlamlığı xəsarət yetirilmə nəticəsində və ya başqa şəkildə pozulmuş fiziki şəxsin) əlavə xərclərə (müalicəyə, əlavə qidalanmaya, dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitəsinin verilməsinə və başqa peşə öyrədilməsinə) ehtiyacı olub-olmadığını tibbi-sosial ekspert komissiyaları vasitəsilə müəyyən etmək;~~

~~3.1.6. əlilliyi olan şəxsin müayinə və müalicə məqsədləri ilə (tibbi-sosial ekspert komissiyalarının tərtib etdiyi fərdi reabilitasiya proqramları istisna olmaqla) səhiyyə və ya reabilitasiya müəssisəsinə göndərilməsi barədə qərar qəbul etmək;~~

~~3.1.7. əlilliyi olan şəxsin təkrar müayinəsi sənədlərlə təsdiq edilən üzrlü səbəbdən (stasionar müalicə, ezamiyyə, hərbi əməliyyatlar gedən bölgələrdə vəziyyət və s.) gecikdirildikdə, ötmüş müddətdə şəxsin əlilliyi barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən qərar qəbul edilməsini təmin etmək;~~

~~3.1.8. istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin ölümünün qeyd edilən hadisələrlə əlaqəsinin tibbi-sosial ekspert komissiyaları tərəfindən müəyyənləşdirilməsini təmin etmək;~~

~~3.1.9. əlilliyi olan şəxslərin əlilliklə bağlı sosial adaptasiyasının həyata keçirilməsini təşkil etmək;~~

~~3.1.10. əlilliyin yaranmasına, inkişafına və nəticəsinə təsir göstərən səbəbləri, şərait və amilləri öyrənmək və əlilliyin yayılması səbəblərini araşdırmaq;~~

~~3.1.11. əlilliyi olan şəxslərə tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin psixoloji yardım göstərməsini təmin etmək;~~

3.1.12. işləyən əlilliyi olan şəxslərin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən rəy verilməsini təmin etmək;

3.1.13. əlilliyi olan şəxslər, əlilliyin vəziyyəti və dinamikası, əlillərin sosial müdafiə, o cümlədən reabilitasiya tədbirlərinə olan ehtiyacı, görülən tədbirlərin nəticəsi və səmərəliliyi barədə sistemləşdirilmiş məlumat bankı yaratmaq;[114]

3.1.14. əlilliyin qarşısının alınması və əlillərin bərpası məqsədi ilə Nazirliyə təkliflər vermək;

3.1.15. əlil hesab edilmiş çağırışyaşlı şəxslər haqqında Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə məlumat vermək;

3.1.16. tibbi-sosial ekspert komissiyaları tərəfindən yetkinlik yaşına çatmış sağlamlıq imkanları məhdud şəxslərdə fiziki çatışmazlıqların, əqli və (və ya) psixi ləngimələrin diaqnostikasının aparılmasını, bunun əsasında onların xüsusi təhsilə ehtiyacının müəyyənləşdirilməsini təşkil etmək;

3.1.17. tibbi-sosial ekspert komissiyaları və protez-ortopedik bərpa mərkəzləri tərəfindən əlilliyi olan şəxslərin protez-ortopediya məmulatları və reabilitasiya vasitələri ilə təmin olunmasını təşkil etmək;

3.1.18. protez-ortopedik bərpa mərkəzləri tərəfindən protez-ortopedik məmulatların ayrı-ayrı növlərinin, protez ayaqqabılarının və digər reabilitasiya vasitələrinin istehsal olunmasını, protez-ortopedik məhsulların istehsalında müasir texnologiyaların tətbiqini təmin etmək;

3.1.19. protez-ortopedik məmulatların tibbi-texniki sınaqlarını keçirmək və yaxud bu məqsədlə mütəxəssislər dəvət etmək;

3.1.20. əlilliyi olan şəxslərin tibbi, sosial, peşə reabilitasiyasını və istehsalata adaptasiyasını həyata keçirmək;

3.1.21. əlilliyi olan şəxslərin reabilitasiyası məqsədi ilə bədən tərbiyəsi, idman və digər sağlamlıq tədbirlərini həyata keçirmək;

3.1.22. əlilliyin qarşısının alınması və əlillərin bərpası ilə bağlı kadrların ixtisasının artırılması və kadr hazırlığının həyata keçirilməsi sahəsində tədbirlər görmək;

3.1.23. Xidmətin maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən müasir informasiya texnologiyaları ilə təmin edilməsi barədə Nazirliyə təkliflər vermək;

3.1.24. vətəndaşların qəbulunu təşkil etmək, ərizə, təklif və şikayətlərə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada və müddətdə baxılmasını təmin etmək;[115]

3.1.25. əlilliyi olan şəxslərlə bağlı statistik hesabatları aidiyyəti üzrə müvafiq dövlət orqanlarına təqdim etmək;

3.1.26. bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, əlilliyi olan şəxslərin reabilitasiyası və sosial müdafiəsi sahəsində digər vəzifələri yerinə yetirmək.

## 4. Xidmətin hüquqları

4.1. Xidmətin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. əlilliyin qarşısının alınması və əlillərin bərpası sahəsində normativ aktların təkmilləşdirilməsinə dair təkliflərini Nazirliyə təqdim etmək;

4.1.2. tibbi-sosial ekspert komissiyalarının qərarından narazı olan vətəndaşların müraciəti əsasında onları təkrar müayinə etmək, müayinənin nəticəsindən asılı olaraq qərar qəbul etmək, yaxud tibbi-sosial ekspert komissiyasının qərarını təsdiq və ya ləğv etmək;

4.1.3. tibbi-sosial ekspert komissiyalarının qərar qəbul etməkdə çətinlik çəkdiyi mürəkkəb ekspertiza hallarında tibbi-sosial ekspert komissiyalarına məsləhət vermək;

4.1.4. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.5. öz tabeliyində idarə və təşkilatların yaradılması, ləğvi və yenidən təşkili barədə Nazirliyə təkliflər vermək;

4.1.6. əlilliklə bağlı yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək;

4.1.7. bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə məhkəmədə iddiaçı və cavabdeh qismində çıxış etmək;

4.1.8. tibbi-sosial ekspertizanın keçirilməsi üzrə qabaqcıl xarici təcrübəni öyrənmək və xarici və yerli ekspertləri, məsləhətçiləri öz fəaliyyətinə cəlb etmək;

4.1.9. əlilliyin qarşısının alınması və əlillərin bərpası sahəsində beynəlxalq təcrübəni öyrənmək, müvafiq beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təcrübə mübadiləsi aparmaq;

4.1.10. əlilliyi olan şəxslərin reabilitasiyası və sosial müdafiəsi sahəsində digər dövlət orqanları ilə əməkdaşlıq etmək;

4.1.11. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq nəşr, reklam-informasiya işlərini həyata keçirmək;

4.1.12. əlilliyi olan şəxslərin reabilitasiyası və sosial müdafiəsi sahəsində digər hüquqları həyata keçirmək.

## 5. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətin aparatı, tibbi-sosial ekspert komissiyaları və bərpa mərkəzləri Xidmətin vahid sistemini təşkil edir.

5.2. Xidmətə Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.

5.3. Xidmətin rəisi Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və funksiyaların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.4. Xidmətin rəisinin, onun təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

5.5. Xidmətin aparatının inzibati vəzifə tutan işçiləri "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının

~~*Qanununa müvafiq qaydada işə qəbul edilirlər.*~~

~~*5.6. Tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin işçiləri Xidmətin rəisinin təqdimatı əsasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin əmri ilə vəzifəyə təyin və vəzifədən azad edilirlər.*~~

~~*5.7. Xidmətin rəisi:*~~

~~*5.7.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;*~~

~~*5.7.2. tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin fəaliyyətini əlaqələndirir, onlara əməli-metodik kömək göstərilməsini təşkil edir;*~~

~~*5.7.3. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;*~~

~~*5.7.4. Xidmətin aparatının yardımçı vəzifə tutan işçilərini işə qəbul edir;*~~

~~*5.7.5. müəyyən olunmuş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin aparatının, tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin strukturunu, xərclər smetasını və ştat cədvəlini təsdiq üçün Nazirliyə təqdim edir;*~~

~~*5.7.6. Xidmətin aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir;*~~

~~*5.7.7. Xidmət üçün ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsini təmin edir;*~~

~~*5.7.8. Xidmətin rəisinin müavini və təsdiq edilmiş ştat cədvəlinə uyğun olaraq Xidmətin aparatının struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsünü aparır;*~~

~~*5.7.9. Xidmətin aparatının inzibati vəzifə tutan işçiləri, tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin işçiləri barədə intizam tənbehi tədbirlərinin görülməsi üçün Nazirlik qarşısında məsələ qaldırır;*~~

~~*5.7.10. Xidmətin aparatının, tibbi-sosial ekspert komissiyalarının və bərpa mərkəzlərinin işçilərinin həvəsləndirilməsi və mükafatlandırılması barədə tədbirlərin həyata keçirilməsini təmin edir;*~~

~~*5.7.11. Xidmətin işçilərinə icrası məcburi olan əmrlər və göstərişlər verir;*~~

~~*5.7.12. dövlət və yerli özünüidarəetmə orqanları, həmkarlar ittifaqı və işəgötürənlər birlikləri ilə, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə Xidməti vəkalətnaməsiz təmsil edir;*~~

~~*5.7.13. Xidmətin strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;*~~

~~*5.7.14. Xidmətin fəaliyyəti barədə Nazirliyə mütəmadi olaraq hesabat verir;*~~

~~*5.7.15. Xidmətin* qəbul etdiyi *qərarlardan verilmiş şikayətlərə baxır və əsas olduqda, həmin qərarları dəyişdirmək və ya ləğv etmək barədə qərar qəbul edir;*~~

~~*5.7.16. dövlət büdcəsindən Xidmətə ayrılmış vəsaitin xərclənməsinə dair hesabatları Nazirliyə təqdim edir;*~~

~~*5.7.17. Xidmətin fəaliyyət istiqamətləri üzrə digər səlahiyyətləri həyata keçirir.*~~

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 1 iyul 2011-ci il tarixli **462** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 3 iyul 2011-ci il, № 142, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 07, maddə 625)**
2. 21 noyabr 2011-ci il tarixli **524** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 22 noyabr 2011-ci il, № 251; “Azərbaycan” qəzeti, 23 noyabr 2011-ci il, № 258; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 996)**
3. 4 sentyabr 2012-ci il tarixli **701** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 6 sentyabr 2012-ci il, № 198, “Azərbaycan” qəzeti 8 sentyabr 2012-ci il, № 200, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 9, maddə 853)**
4. 1 noyabr 2012-ci il tarixli **724** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 2 noyabr 2012-ci il, № 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 11, maddə 1084)**
5. 15 fevral 2013-cü il tarixli **830** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 16 fevral 2013-cü il, № 36; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 02, maddə 124)**
6. 23 dekabr 2013-cü il tarixli **58** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1525)**
7. 8 iyul 2014-cü il tarixli **207** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 9 iyul 2014-cü il, № 144; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 789)**
8. 11 sentyabr 2014-cü il tarixli **273** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 13 sentyabr 2014-cü il, № 199; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1053)**
9. 13 yanvar 2015-ci il tarixli **441** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 14 yanvar 2015-ci il, № 9 Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 1, maddə 17)**
10. 11 mart 2015-ci il tarixli **483** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 14 mart 2015-ci il, № 58, № 9, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 263)**
11. 16 mart 2015-ci il tarixli **484** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 17 mart 2015-ci il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 264)**
12. 5 iyun 2015-ci il tarixli **549** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 6 iyun 2015-ci il, № 120, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 705)**
13. 10 avqust 2015-ci il tarixli **579** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 908)**

14. 27 oktyabr 2015-ci il tarixli 662 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 10, maddə 1134)**
15. 2 mart 2016-cı il tarixli 816 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 437)**
16. 20 may 2016-cı il tarixli 898 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 22 may 2016-cı il, № 110, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 859)**
17. 23 iyun 2016-cı il tarixli 955 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1051)**
18. 24 iyun 2016-cı il tarixli 976 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)**
19. 5 sentyabr 2017-ci il tarixli 1586 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 sentyabr 2017-ci il, № 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 9, maddə 1633)**
20. 14 mart 2018-ci il tarixli 1883 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)**
21. 27 iyun 2018-ci il tarixli 155 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 28 iyun 2018-ci il, № 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1245)**
22. 25 yanvar 2019-cu il tarixli 483 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 26 yanvar 2019-cu il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №1, maddə 73)**
23. 23 fevral 2019-cu il tarixli 546 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 24 fevral 2019-cu il, № 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №2, maddə 245)**
24. 16 may 2019-cu il tarixli 693 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 18 may 2019-cu il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №5, maddə 845)**
25. 14 iyun 2019-cu il tarixli 744 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 19 iyun 2019-cu il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1036)**
26. 19 iyul 2019-cu il tarixli 785 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 20 iyul 2019-cu il, № 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 7, maddə 1232)**
27. 26 avqust 2019-cu il tarixli 815 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 28 avqust 2019-cu il, № 187, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 8, maddə 1397)**
28. 29 noyabr 2019-cu il tarixli 870 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 11, maddə 1718)**
29. 23 dekabr 2019-cu il tarixli 892 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 25 dekabr 2019-cu il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 1935)**
30. 21 mart 2020-ci il tarixli 971 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 247)**
31. 30 iyun 2020-ci il tarixli 1076 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 iyul 2020-ci il, № 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №6, maddə 717)**
32. 14 avqust 2020-ci il tarixli 1133 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 avqust 2020-ci il, № 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, № 8, maddə 1036)**
33. 16 aprel 2021-ci il tarixli 1313 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 aprel 2021-ci il, № 79, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 4, maddə 318)**
34. 18 avqust 2021-ci il tarixli 1430 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 20 avqust 2021-ci il, № 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 922)**
35. 29 dekabr 2021-ci il tarixli 1538 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 dekabr 2021-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1403)**
36. 30 iyul 2022-ci il tarixli 1774 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 31 iyul 2022-ci il, № 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 7, maddə 762)**
37. 18 avqust 2022-ci il tarixli 1811 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 18 avqust 2022-ci il, "Xalq" qəzeti, 19 avqust 2022-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 871)**
38. 21 noyabr 2022-ci il tarixli 1884 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 21 noyabr 2022-ci il, "Xalq" qəzeti, 22 noyabr 2022-ci il, № 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1261)**
39. 15 mart 2023-cü il tarixli 2066 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2023-cü il, "Xalq" qəzeti, 16 mart 2023-cü il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 3, maddə 361)**
40. 23 may 2023-cü il tarixli 2146 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 23 may 2023-cü il, "Xalq" qəzeti, 24 may 2023-cü il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 5, maddə 650)**
41. 12 iyul 2023-cü il tarixli 2211 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 12 iyul 2023-cü il, "Xalq" qəzeti, 13 iyul 2023-cü il, № 144, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 936)**
42. 19 iyul 2023-cü il tarixli 2233 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 iyul 2023-cü il, "Xalq" qəzeti, 20 iyul 2023-cü il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 958)**
43. 18 noyabr 2023-cü il tarixli 2360 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 18 noyabr 2023-cü il, "Xalq" qəzeti, 19 noyabr 2023-cü il, № 252, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1514)**
44. 30 dekabr 2023-cü il tarixli 2441 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 30 dekabr 2023-cü il, "Azərbaycan" qəzeti, 31**

dekabr 2023-cü il, № 288) *(Bu Fərman 2024-cü il iyulun 1-dən qüvvəyə minir.)*

FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 30 iyun 2020-ci il tarixli 1076 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 1 iyul 2020-ci il, № 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №6, maddə 717)** ilə 1.2-ci, 1.4-cü bəndlər, 5-ci və 6-1-ci hissələr ləğv edilmişdir.

[2] 24 iyun 2016-cı il tarixli 976 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə 1.3-cü bənd və 6-cı hissə ləğv edilmişdir.

[3] 16 mart 2015-ci il tarixli 484 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 17 mart 2015-ci il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 264)** ilə 1.3-cü bənddə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 1.4-cü bənd əlavə edilmişdir.

[4] 16 mart 2015-ci il tarixli 484 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 17 mart 2015-ci il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 264)** ilə yeni məzmunda 6-1-ci hissə əlavə edilmişdir.

[5] 16 mart 2015-ci il tarixli 484 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 17 mart 2015-ci il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 264)** ilə 7-ci hissədə “**177**” rəqəmləri “**211**” rəqəmləri ilə, “**50**” rəqəmləri “**57**” rəqəmləri ilə, “**314**” rəqəmləri “**308**” rəqəmləri ilə, “**54**” rəqəmləri “**56**” rəqəmləri ilə, “**303**” rəqəmləri “**306**” rəqəmləri ilə, “**42**” rəqəmləri “**52**” rəqəmləri ilə, “**3003**” rəqəmləri “**2859**” rəqəmləri ilə əvəz edilmişdir, “**müəyyən edilsin**” sözlərindən əvvəl “**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin aparatının işçilərinin say həddi 25 ştat vahidi**” sözləri əlavə edilmişdir.

24 iyun 2016-cı il tarixli 976 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə 7-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~7. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparatının işçilərinin say həddi 211 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin aparatının işçilərinin say həddi 57 ştat vahidi (Xidmətin mərkəzi laboratoriyası ilə birlikdə), Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin yerli bölmələrinin işçilərinin say həddi 308 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin aparatının işçilərinin say həddi 56 ştat vahidi, rayon (şəhər) məşğulluq orqanlarının işçilərinin say həddi 306 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin aparatının işçilərinin say həddi 52 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin yerli bölmələrinin işçilərinin say həddi 2859 ştat vahidi, *Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin aparatının işçilərinin say həddi 25 ştat vahidi* müəyyən edilsin.~~

5 sentyabr 2017-ci il tarixli 1586 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 6 sentyabr 2017-ci il, № 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 9, maddə 1633)** ilə 7-ci hissədə “**57**” rəqəmləri “**55**” rəqəmləri ilə, “**308**” rəqəmləri “**260**” rəqəmləri ilə əvəz edilmişdir.

26 avqust 2019-cu il tarixli 815 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 28 avqust 2019-cu il, № 187, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 8, maddə 1397)** ilə 7-ci hissədə “**289**” rəqəmləri “**309**” rəqəmləri ilə və “**4536**” rəqəmləri “**4366**” rəqəmləri ilə əvəz edilmişdir.

30 iyun 2020-ci il tarixli 1076 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 1 iyul 2020-ci il, № 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №6, maddə 717)** ilə 7-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*7. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparatının işçilərinin say həddi 309 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti aparatının işçilərinin say həddi 55 ştat vahidi (Xidmətin mərkəzi laboratoriyası ilə birlikdə), Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin yerli bölmələrinin işçilərinin say həddi 260 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti aparatının işçilərinin say həddi 56 ştat vahidi, rayon (şəhər) məşğulluq orqanlarının işçilərinin say həddi 852 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatının işçilərinin say həddi 155 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarının işçilərinin say həddi 4366 ştat vahidi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti aparatının işçilərinin say həddi 30 ştat vahidi müəyyən edilsin.*~~

23 may 2023-cü il tarixli 2146 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 23 may 2023-cü il, “Xalq” qəzeti, 24 may 2023-cü il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 5, maddə 650)** ilə 7-ci hissədə “**110**” rəqəmləri “**107**” rəqəmləri ilə, “**260**” rəqəmləri “**257**” rəqəmləri ilə əvəz edilmişdir və həmin hissədən “**(Xidmətin mərkəzi laboratoriyası ilə birlikdə)**” sözləri çıxarılmışdır.

[6] 30 iyun 2020-ci il tarixli 1076 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 1 iyul 2020-ci il, № 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №6, maddə 717)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturu”nun 3-cü, 4-1-ci və 4-2-ci hissələri ləğv edilmişdir.

[7] 24 iyun 2016-cı il tarixli 976 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturu”nun 4-cü hissəsi ləğv edilmişdir.

[8] 16 mart 2015-ci il tarixli 484 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 17 mart 2015-ci il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 264)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturu”na yeni məzmunda 4-1-ci hissə əlavə edilmişdir.

[9] 24 iyun 2016-cı il tarixli 976 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturu”na yeni məzmunda 4-2-ci hissə əlavə edilmişdir.

[10] 24 iyun 2016-cı il tarixli 976 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”nin 1.1-ci bənddə, 2.1.1-ci və 3.1.1-ci yarımbəndlərdə “**sosial müdafiəsi**” sözlərindən sonra **“, o cümlədən əmək pensiyaları və sosial sığorta**” sözləri əlavə edilmişdir.

14 mart 2018-ci il tarixli 1883 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”nin 1.1-ci bəndinə, 2.1.1-ci və 4.1.3-cü yarımbəndlərinə “**əhalinin məşğulluğu**,” sözlərindən sonra “**işsizlikdən sığorta**,” sözləri əlavə edilmişdir.

14 avqust 2020-ci il tarixli 1133 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 15 avqust 2020-ci il, № 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, № 8, maddə 1036)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”nin 1.1-ci bəndində, 2.1.3-cü və 3.1.53-cü yarımbəndlərdə ismin müvafiq hallarında “**əlillər və sağlamlıq imkanları məhdud uşaqlar**” sözləri ismin müvafiq hallarında “**əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar**” sözləri ilə əvəz edilmişdir.

29 dekabr 2021-ci il tarixli 1538 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 30 dekabr 2021-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1403)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”də 1.1-ci bəndə və 3.1.1-ci, 3.1.36-cı, 4.1.3-cü yarımbəndlərə “**sosial sığorta,**” sözlərindən sonra “**dövlət icbari şəxsi sığorta,**” sözləri əlavə edilmişdir.
18 avqust 2021-ci il tarixli 1430 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 20 avqust 2021-ci il, № 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 922)** ilə 1.1-ci bənddən, 2.1.3-cü, 3.1.49-cu (hər iki halda), 3.1.50-ci, 3.1.51-ci və 3.1.53-cü yarımbəndlərdən ismin müvafiq hallarında **“, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar**” sözləri çıxarılmışdır.
12 iyul 2023-cü il tarixli 2211 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 12 iyul 2023-cü il, “Xalq” qəzeti, 13 iyul 2023-cü il, № 144, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 936)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”nin 1.1-ci bəndə “**reabilitasiyası**” sözündən sonra **“, himayədar ailə və övladlığagötürmə**” sözləri əlavə edilmişdir.

[11] 29 dekabr 2021-ci il tarixli 1538 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 30 dekabr 2021-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1403)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”də 2.1.1-ci yarımbəndə “**sosial sığorta**” sözlərindən sonra “**, habelə dövlət icbari şəxsi sığorta**” sözləri əlavə edilmişdir.

[12] 19 iyul 2019-cu il tarixli 785 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 20 iyul 2019-cu il, № 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 7, maddə 1232)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”yə yeni məzmunda 2.1.1-1-ci yarımbənd əlavə edilmişdir.
12 iyul 2023-cü il tarixli 2211 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 12 iyul 2023-cü il, “Xalq” qəzeti, 13 iyul 2023-cü il, № 144, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 936)** ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”nin 2.1.1-1-ci yarımbənddə **“övladlığagötürmə sahəsində”** sözləri “**himayədar ailə və övladlığagötürmə sahələrində”** sözləri ilə əvəz edilmişdir.

[13] 15 fevral 2013-cü il tarixli **830** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 16 fevral 2013-cü il, № 36; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 02, maddə 124)** ilə 2.1.5-ci yarımbənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.1.5. ahıllara, əlillərə və sosial müdafiəyə xüsusi ehtiyacı olan digər şəxslərə qanunvericiliyə uyğun olaraq sosial-məişət xidmətlərinin göstərilməsini təmin edir;~~

[14] 14 mart 2018-ci il tarixli **1883** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.1-ci yarımbəndinə "**əhalinin məşğulluğu**" sözlərindən sonra "**, işsizlikdən sığorta**" sözləri əlavə edilmişdir.

[15] 15 mart 2023-cü il tarixli **2066** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2023-cü il, "Xalq" qəzeti, 16 mart 2023-cü il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 3, maddə 361)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.8-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.1.8. öz səlahiyyətləri daxilində Nazirliyin strukturuna daxil olan qurumların və tabeliyində olan digər qurumların fəaliyyətinə nəzarəti həyata keçirmək;~~

[16] 2 mart 2016-cı il tarixli **816** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 437)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 3.1.9-1-ci yarımbənd əlavə edilmişdir.

25 yanvar 2019-cu il tarixli **483** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 26 yanvar 2019-cu il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №1, maddə 73)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.9-1-ci yarımbəndində "**informasiya sisteminin fəaliyyətini**" sözləri "**elektron informasiya sisteminin fəaliyyətini və əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin bu sistem vasitəsilə həyata keçirilməsini**" sözləri ilə əvəz edilmişdir.

[17] 8 iyul 2014-cü il tarixli **207** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 9 iyul 2014-cü il, № 144; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 789)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.19-cu yarımbənddə "**əmək müqaviləsini (kontraktını) bağlamadan**" sözləri "**əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən**" sözləri ilə əvəz edilmişdir.

[18] 8 iyul 2014-cü il tarixli **207** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 9 iyul 2014-cü il, № 144; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 789)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"na məzmunda 3.1.19-1-ci yarımbənd əlavə edilmişdir.

25 yanvar 2019-cu il tarixli **483** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 26 yanvar 2019-cu il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №1, maddə 73)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.19-1-ci yarımbəndində "**əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin**" sözləri "**Nazirliyin fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi məqsədilə "e-sosial" internet portalının**" sözləri ilə əvəz edilmişdir.

[19] 23 iyun 2016-cı il tarixli **955** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1051)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 3.1.19-2-ci yarımbənd əlavə edilmişdir.

[20] 27 iyun 2018-ci il tarixli **155** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 28 iyun 2018-ci il, № 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1245)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.21-ci yarımbəndində "**bağlılığını araşdıraraq təhqiqatının**" sözləri "**bağlılığının araşdırılmasını**" sözləri ilə əvəz edilmişdir.

[21] 29 noyabr 2019-cu il tarixli **870** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 11, maddə 1718)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 3.1.24-1-ci yarımbənd əlavə edilmişdir.

[22] 14 mart 2018-ci il tarixli **1883** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 3.1.25-1-ci və 3.1.25-2-ci yarımbəndlər əlavə edilmişdir.

[23] 29 dekabr 2021-ci il tarixli **1538** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 dekabr 2021-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1403)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də 3.1.25-2-ci yarımbəndə "**sosial sığortanın**" sözlərindən sonra "**, dövlət icbari şəxsi sığortanın**" sözləri əlavə edilmişdir.

[24] 14 iyun 2019-cu il tarixli **744** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 19 iyun 2019-cu il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1036)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"nin 3.1.26-cı yarımbəndində "**vətəndaşların**" sözü "**şəxslərin**" sözü ilə və "**əmək bazarının real tələblərinə müvafiq peşə hazırlığını, əlavə təhsilini və haqqı ödənilən ictimai işlərə**" sözləri "**aktiv məşğulluq tədbirlərinə**" sözləri ilə əvəz edilmişdir.

[25] 14 iyun 2019-cu il tarixli **744** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 19 iyun 2019-cu il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №6, maddə 1036)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"yə yeni məzmunda 3.1.27-1-ci yarımbənd əlavə edilmişdir.

[26] 29 noyabr 2019-cu il tarixli **870** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, № 267)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"yə yeni məzmunda 3.1.27-2-ci yarımbənd əlavə edilmişdir.

[27] 24 iyun 2016-cı il tarixli **976** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"nə yeni məzmunda 3.1.28-1 - 3.1.28-6-cı yarımbəndlər əlavə edilmişdir.

14 mart 2018-ci il tarixli **1883** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə" 3.1.28-1-ci yarımbəndində "**büdcə layihəsinin**" sözləri "**və işsizlikdən sığorta fondunun büdcə layihələrinin**" sözləri ilə əvəz edilmişdir.

30 iyun 2020-ci il tarixli **1076** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 iyul 2020-ci il, № 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №6, maddə 717)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"nin 3.1.28-1-ci və 3.1.37-1-ci yarımbəndlərində "**Nazirlik yanında**" sözləri "**Nazirliyin tabeliyində**" sözləri ilə əvəz edilmişdir.

[28] 14 mart 2018-ci il tarixli **1883** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"nin 3.1.28-2-ci yarımbəndində "**sahəsində**" sözü "**və işsizlikdən sığorta sahələrində**" sözləri ilə əvəz edilmişdir.

21 mart 2020-ci il tarixli **971** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 247)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"nin 3.1.28-2-ci yarımbəndə "**idarəetməni**" sözündən sonra "**(məcburi dövlət sosial sığorta haqlarının və işsizlikdən sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət üzrə fəaliyyət istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

29 dekabr 2021-ci il tarixli **1538** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 30 dekabr 2021-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1403)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"də 3.1.28-2-ci yarımbənddə "**sığortası**" sözü "**sığorta, dövlət icbari şəxsi sığorta**" sözləri ilə əvəz edilmişdir.

[29] 14 mart 2018-ci il tarixli **1883** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"nin 3.1.28-3-cü yarımbəndində "**Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş miqdarda məcburi dövlət sosial sığorta**" sözləri "**Azərbaycan Respublikasının "Sosial sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunları ilə müəyyən edilmiş miqdarda məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta**" sözləri ilə əvəz edilmişdir.

21 mart 2020-ci il tarixli **971** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 247)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"nin 3.1.28-3-cü yarımbənd ləğv edilmişdir.

[30] 14 mart 2018-ci il tarixli **1883** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"nin 3.1.28-4-cü yarımbəndinə "**əmək pensiyalarının**" sözlərindən sonra ", "**İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsində göstərilən tədbirlərin**" sözləri əlavə edilmişdir.

[31] 21 mart 2020-ci il tarixli **971** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 247)** ilə "Azərbaycan Respublikasının əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında əsasnamə"nin 3.1.28-6-cı yarımbənddə "**işəgötürən və sığortaolunan tərəfindən**" sözləri "**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən sığortaedənlər və sığortaolunanlar barədə**" sözləri ilə əvəz edilmişdir.

[32] 29 dekabr 2021-ci il tarixli **1538** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq"**

**qəzeti, 30 dekabr 2021-ci il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1403)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 3.1.28-7-ci yarımbənd əlavə edilmişdir.

[33] 24 iyun 2016-cı il tarixli **976** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.29-cu yarımbənddə "**sosial müavinətlərin**" sözlərindən əvvəl "**əmək pensiyalarının,**" sözləri əlavə edilmişdir.

[34] 14 avqust 2020-ci il tarixli **1133** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 avqust 2020-ci il, № 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, № 8, maddə 1036)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.34-cü yarımbəndində "**əlillərin**" sözü "**əlilliyi olan şəxslərin**" sözləri ilə əvəz edilmişdir.

[35] 24 iyun 2016-cı il tarixli **976** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.36-cı yarımbənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~3.1.36. dövlət büdcəsinin vəsaiti hesabına ödənilən sosial müavinətlər sisteminin unifikasiyası və sadələşdirilməsi üzrə təkliflər vermək;~~

14 mart 2018-ci il tarixli **1883** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.36-cı yarımbəndinə "**sosial sığorta**," sözlərindən sonra "**işsizlikdən sığorta**," sözləri əlavə edilmişdir.

[36] 24 iyun 2016-cı il tarixli **976** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.37-ci yarımbənddə "**sosial müavinətlər**" sözlərindən əvvəl "**əmək pensiyaları,**" sözləri əlavə edilmişdir.

[37] 24 iyun 2016-cı il tarixli **976** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1072)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nə yeni məzmunda 3.1.37-1-ci yarımbənd əlavə edilmişdir.

14 mart 2018-ci il tarixli **1883** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 15 mart 2018-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №3, maddə 433)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.37-1-ci yarımbəndə "**haqqında**" sözündən sonra "**və işsizlikdən sığorta fondunun büdcəsi haqqında**" sözləri əlavə edilmişdir.

[38] 21 noyabr 2011-ci il tarixli **524** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 22 noyabr 2011-ci il, № 251; "Azərbaycan" qəzeti, 23 noyabr 2011-ci il, № 258; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 996)** ilə 3.1.41-ci və 3.1.43-cü yarımbəndlər ləğv edilmişdir.

[39] 11 sentyabr 2014-cü il tarixli **273** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 13 sentyabr 2014-cü il, № 199; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1053)** ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"yə yeni məzmunda 3.1.42-1-ci yarımbənd əlavə edilmişdir.

[40] 21 noyabr 2011-ci il tarixli **524** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 22 noyabr 2011-ci il, № 251; "Azərbaycan" qəzeti, 23 noyabr 2011-ci il, № 258; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 996)** ilə 3.1.44-cü yarımbənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.1.44. əcnəbilərə Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətinin həyata keçirilməsi üçün qanunvericiliyə uyğun olaraq fərdi icazə vermək və qanunvericilikdə nəzərdə tutulmuş hallarda həmin icazəni ləğv etmək;~~

11 sentyabr 2014-cü il tarixli **273** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 13 sentyabr 2014-cü il, № 199; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1053)** ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.44-cü yarımbənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.1.44. Azərbaycan Respublikasının ərazisində əcnəbi işçi qüvvəsini cəlb etmək və ondan istifadə etmək üçün icazələrin, habelə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün fərdi icazələrin verilməsinə və onların müddətinin uzadılmasına rəy vermək;~~

19 iyul 2023-cü il tarixli **2233** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət**

**İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 iyul 2023-cü il, "Xalq" qəzeti, 20 iyul 2023-cü il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 958)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.44-cü yarımbəndə "**Azərbaycan**" sözündən əvvəl "**Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq**," sözləri əlavə edilmişdir.

[41] 19 iyul 2023-cü il tarixli **2233** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 iyul 2023-cü il, "Xalq" qəzeti, 20 iyul 2023-cü il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 958)** ilə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.45-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~3.1.45. qanunvericilikdə nəzərdə tutulan hallarda və qaydada müvafiq fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsini təmin etmək;~~

